YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 oktyabr 2025-ci il Cümə № 193 (8803) Qiymətі 60 qəpik

**Xəbər**

## Maaşlardan tutulacaq məbləğ açıqlandı

yazısı səh.13-də

**Gündəm**

### Şuşa razılaşması işə düşdü



Xüsusi təyinatlılar BƏƏ-nin bölmələri ilə təlimlərə başlayıb

yazısı səh.5-də

### Milli Şuraya "mitinq sifarişi"

yazısı səh.4-də

### Bakının iki rayonunda böyük söküntü başlayır

yazısı səh.3-də

### Sülh danışığı gözlərkən "qara xəbər" gəldi

yazısı səh.6-də

### Bakının Orta Asiyaya "yürüşü"- 5+1 formulu

yazısı səh.7-də

### İrəvanla Rusiya arasında yeni gərginlik

yazısı səh.8-də

### "Lukoyl" Azərbaycandakı aktivlərini sata bilər

yazısı səh.11-də

### "Bu sənədlərin hamısını KQB-nin arxivində tapdıq"

yazısı səh.12-də

### Naxçıvanda turizm böhranı

yazısı səh.10-da

### TikTok-da yuyulan "qara pullar" - nəzarət varmı?

yazısı səh.13-də

### Ölkədə iş saatını azaltmaq təklifi

yazısı səh.10-da

### Piyada ölümlərinin artmasının əsl səbəbi

yazısı səh.15-də

### "QHT işi" üzrə daha iki məhkəmə başladı

yazısı səh.3-də

# MDB ÖLKƏLƏRİNƏ QƏFİL HƏMLƏ

Moskvanın son addımları strateji itkiləri bərpa isteriyasından irəli gəlir; Kreml lideri "Yeni Rusiya" üçün tələsir...

yazısı səh.9-da



## İcra başçılarının "pul xərcləmək yarışı" - sensasion iddia

İlin son rübündə "tender canlanması"nın arxasındakı sirr

yazısı səh.3-də



*Əli Nağıyev:*

### "Yıxılana balta vurmaq" mənim sənətim deyil"

yazısı səh.4-də



Rusif Hüseynov

### İrəvandan qayıdan QHT sədri danışdı

yazısı səh.7-də



Fikrət Yusifov

### Hərbi büdcəmiz azaldılır-daha müharibə olmayacaq?

yazısı səh.6-da

# Alìmentìn məbləğì artırılır



**2026-cı il üçün ölkə üzrə yaşayış minimumu məlum olub. Milli Məclisə təqdim edilən qanun layihəsinə əsasən, ölkə üzrə sözügedən məbləğ 300 manat olacaq. Uşaq üçün yaşayış minimumu isə 260 manat məbləğində müəyyən ediləcək. Məlumata görə, uşaqlar üçün yaşayış minimumunun məbləği əvvəlki illə müqayisədə 16 manat artacaq.**

Bu həm də alimentin minimum məbləğinin artacağı deməkdir. Alimentin sabit pul məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun olaraq hesablanır. Yəni gələn ildən etibarən minimum məbləğ 260 manat təşkil edəcək. Qeyd edək ki, Ailə Məcəlləsinə əsasən, aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən bir uşağa görə qazancın, yaxud da gəlirlərin 1/4 hissəsi, 2 uşağa görə qazancın və ya gəlirlərin 1/3 hissəsi, 3 və daha çox uşağa görə isə qazancın və yaxud gəlirlərin yarısı aliment olaraq hesablanır.

Alimentin miqdarı məhkəmə tərəfindən müəyyən nüanslar nəzərə alınmaqla azaldıla və ya artırıla bilər. Aliment öhdəliyi olan şəxs işləmirsə və ya heç bir gəliri yoxdursa, bu zaman məhkəmə həmin şəxsə alimentin ödənilməsini sabit pul məbləğində təyin edir. Alimentin sabit pul məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun olaraq hesablanır.




## Azərbaycanın "milyarder" bankları

**Azərbaycan bank sektorunda depozit portfellərinin həcminə görə kəskin fərqlər müşahidə olunur.**

Rəsmi məlumatlara əsasən, ölkədə fəaliyyət göstərən 9 bankın depozit portfeli 1 milyard manatı ötüb, bəzi kredit təşkilatlarında isə bu göstərici 100 milyon manatdan aşağıdır.

***Depozit portfelinin həcminə görə lider olan 3 bank aşağıdakılardır:***

**Kapital Bank - 8 milyard 671 milyon manat**

Azərbaycan Beynəlxalq Bankı (ABB) - 8 milyard 627 milyon manat

**PAŞA Bank - 6 milyard 766 milyon manat**

Bu üç bank ölkə üzrə cəmi depozitlərin əksər hissəsini özündə cəmləşdirib.

"Milyarder banklar klubu"nun digər üzvləri Xalq Bank (1 milyard 843 milyon manat), Bank Respublika (1 milyard 515 milyon manat), Unibank (1 milyard 232 milyon manat), Azər Türk Bank (1 milyard 188 milyon manat), AccessBank (1 milyard 45 milyon manat) və Yelo Bankdır (1 milyard 40 milyon manat).

Depozit portfeli 100 milyon - 1 milyard manat aralığında olan 11 bank var. Onlar Rabitəbank (793 milyon manat), Bank of Baku (699 milyon manat) və Ziraat Bank Azərbaycan (629 milyon manat) ön sıralarda qərarlaşıb. Bu aralıq depozit portfeli olan digər banklar Azərbaycan Sənaye Bankı, Turan Bank, Yapı Kredit Bank Azərbaycan, Premium Bank, Express Bank, Bank BTB, AFB Bank, Bank VTB Azərbaycandır.

Ən aşağı göstərici isə iki banka məxsusdur: Bank Avrasiya (61 milyon manat) və Bank Melli İranın Bakı filialı (36 milyon manat).

## Rüşvətə görə tutulan mayor həbsdə qaldı



İlham Haqverdiyev

**Müdafiə Nazirliyinin "İstirahət evi"nin rüşvət ittihamı ilə həbs edilən rəisi, mayor İlham Haqverdiyevin barəsində olan qərardan verilən apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, Bakı Apelyasiya Məhkəməsində hakim Habil Məmmədovun sədrliyi ilə keçirilən prosesdə qərar qəbul olunub.

Qərara əsasən, şikayət təmin edilməyib. Təqsirləndirilən şəxsin vəkili bildirib ki, iş üzrə şikayətçi yoxdur və dəyən maddi ziyan ödənilib.

Qeyd edək ki, İlham Haqverdiyevin barəsində Hərbi Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanılıb və Bakı Hərbi Məhkəməsinin qərarı ilə 2 ay 20 gün müddətə həbs-qətimkan tədbiri seçilib.

## Gələn ay 12 gün iş olmayacaq



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təsdiqlədiyi 2025-ci il istehsalat təqviminə əsasən noyabrda 12 gün qeyri-iş günü olacaq.**

Modern.az xəbər verir ki, 8 noyabr - Zəfər Günü şənbə gününə, 9 noyabr - Dövlət Bayrağı Günü isə bazar gününə təsadüf etdiyindən 10 və 11 noyabr tarixləri qeyri-iş günü olacaq.

Ümumilikdə, noyabr ayında şənbə və bazar günləri də daxil olmaqla aşağıdakı tarixlər qeyri-iş günləridir:

1, 2, 8, 9, 10, 11, 15, 16, 22, 23, 29 və 30 noyabr.

Beləliklə, noyabr ayında ümumilikdə 12 qeyri-iş günü olacaq.

Qeyd edək ki, Konstitusiya Günü (12 noyabr) və Milli Dirçəliş Günü (17 noyabr) isə iş günü olan bayram günləridir.



İqbal Məmmədov

## Keçmiş deputatın 1,5 milyon vergi borcu var

**Milli Məclisin sabiq deputatı İqbal Məmmədova məxsus "Kaspi Yıldız" şirkətinin 1 milyon 438 744 manat vergi borcu yaranıb.**

"Teleqraf" xəbər verir ki, bu, şirkətin əvvəlki illərə nisbətdə ən az vergi borcudur. Belə ki, 2022-ci ildə bu məbləğ 10 milyon manata yaxın idi.

Qeyd edək ki, şirkətin təsisçilərindən biri də Rafet Ekmekçioğlu olub. O, 2022-ci ildə özünə məxsus 50% payı İqbal Məmmədova verib. Bununla da "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin təsisçisi 100% payla Məmmədov İqbal Nəriman oğlu olub.

Onu da əlavə edək ki, "Relax" istirahət mərkəzi də Lerikin sabiq deputatına məxsusdur. Sözügedən istirahət mərkəzi daha öncəki illərdə qalmaqalla yadda qalmışdı. Belə ki, obyektə yoxlamaya gələn Vergilər Nazirliyinin əməkdaşları İqbal Məmmədovun oğlu Mirhəmid Nərimanlı, qardaşı oğlu Orxan Nərimanlı və digər qohumları tərəfindən döyülmüşdü.

## Dünya səyyahları Şuşada




**ETIC (Extreme Traveler International Congress) klubunun rəhbəri Kolja Sporinin başçılığı ilə oktyabrın 23-də 8 ölkədən olan səyyahlar Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər.**

Daha sonra səyyahlar "Xan qızı" bulağında olublar, Şuşa qala divarlarını ziyarət ediblər. Yuxarı Gövhər Ağa məscidinə gələn qonaqlara ermənilərin mədəni, tarixi, dini abidələrə qarşı həyata keçirdikləri vandalizm barədə məlumat verilib. Vurğulanıb ki, işğal edilən bütün ərazilərdə olduğu kimi, Şuşada da abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqirə məruz qalıb. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər Ağa məscididir. Şuşa şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan dövlətinin diqqət və qayğısı ilə məsciddə yenidənqurma və bərpa işləri həyata keçirilib.

## Toyuq əti niyə bahalaşır?



**Azərbaycanda toyuq və quş ətinin qiymətində nəzərəçarpan artım müşahidə edilir.**

Belə ki, yerli bazara nəzər saldıqda, gündəlik istehlakın əsas məhsullarından biri olan toyuq ətinin qiymətində dəyişiklik olduğu görünür.

Modern.az toyuq və quş ətinin qiymətində olan artımı iqtisadçı ekspert Eyyub Kərimli ilə müzakirə edib. O, nəzərəçarpan artımın səbəbini izah edərkən bildirib ki, quşçuluq sahəsində yemin idxalında da qiymət artımı müşahidə edilir: "Quşçuluq istehsal şirkətləri əsasən yemi xarici ölkələrdən idxal etdikləri üçün bu amil də qiymətlərin yüksəlməsinə öz təsirini göstərir. Ümumilikdə, qeyd olunan bütün bu amillər bazarda qiymət artımına gətirib çıxarır. Lakin hesab edirəm ki, epidemik vəziyyət səngidikdən və ətə olan tələbat bərpa olunduqdan sonra qiymətlərdə müəyyən enmə və sabitləşmə müşahidə etmək mümkün olacaq",- deyə E.Kərimli sonda qeyd edib.



## 6 azərbaycanlı Suriyadan ölkəmizə gətirildi

**Suriyadan oktyabrın 22-də ikisi qadın, dördü uşaq olmaqla, 6 Azərbaycan vətəndaşının ölkəyə repatriasiyası həyata keçirilib.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Suriyaya ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub. Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

## Tələbənin dabaq xəstəliyinə yoluxması təkzib edildi

**Hazırda ölkədə dabaq xəstəliyi ilə bağlı insanlar arasında yoluxma faktı aşkarlanmayıb.**

Bu barədə Səhiyyə Nazirliyi açıqlama yayıb.

Bildirilib ki, sosial şəbəkələrdə "Anadolu Universitetinin Bakı filialında təhsil alan Elnarə Həziyeva adlı şəxsin guya dabaq xəstəliyinə yoluxması" ilə bağlı yayılan məlumat həqiqətə uyğun deyil: "Qeyd edirik ki, Azərbaycanda son 30 il ərzində insanlar arasında dabaq xəstəliyi qeydə alınmayıb. Hazırda ölkə ərazisində bu xəstəliklə bağlı insanlar arasında yoluxma faktı aşkarlanmayıb".

Nazirlik vətəndaşlara müraciət edərək bildirib ki, yalnız rəsmi mənbələrin təsdiqlədiyi məlumatlara etibar edilsin.



## Media subyektləri daha 3 il vergidən azad olunur

**Azərbaycanda media subyektləri üçün vergi güzəştinin müddəti daha 3 il uzadılır.**

Bu, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Qeyd edək ki, media subyektləri üçün 3 illik vergi güzəştinin müddəti 2026-cı il yanvarın 1-də başa çatırdı. Beləliklə, bu müddət daha 3 il uzadılır.

# “QHT işi” üzrə daha iki məhkəmə başladı

## Bəşir Süleymanlı və Hafiz Həsənov özlərini suçlu bilmirlər və bəraət istəyirlər

**“Vətəndaş Hüquqları” İnstitutunun rəhbəri Bəşir Süleymanlının cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib. Məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Seyidovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı Vüsal Mehralıyev ittiham aktını elan edib.**

İttihama görə, Bəşir Süleymanlı Parisdə fəaliyyət göstərən ABŞ-nin Alman Marşal Fondundan və digər fondlardan sosial məzmunlu layihələr adı ilə ümumilikdə 148 min manatdan artıq vəsait qrantı tamah məqsədilə ələ keçirib. O, bu əməli törədərkən Mehriban Rəhimli və digərləri ilə cinayət əlaqəsinə girib, vəzifə səlahiyyətlərindən sui- istifadə edib və alınmış qrantlar barədə müvafiq nazirliklərə məlumat verməyib. Bəşir Süleymanlı ona elan edilən ittihamla özünü təqsirli bilməyib.



Bəşir Süleymanlı



Hafiz Həsənov

Növbəti proses noyabrın 20-nə təyin edilib.

Qeyd edək ki, Bəşir Süleymanlı bu ilin mart ayında saxlanılıb və ona Cinayət Məcəlləsinin 313-cü (Vəzifə saxtakarlığı), 193-1.3.2-ci (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, xeyli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunur. Onun barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

“QHT işi” üzrə təqsirləndirilən “Hüquq və İnkişaf” İctimai Birliyinin rəhbəri Hafiz Həsənovun da cinayət işi üzrə məhkəmə prosesi başlayıb.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən Hafiz Həsənov ona qarşı irəli sürülən ittihamla razılaşmayıb və işə xitam verilməsi ilə bağlı vəsatət verib.

Məhkəmə vəsatəti təmin etməyib. Cinayət işi üzrə məhkəmə baxışı noyabrın 5-nə təyin olunub.

Qeyd edək ki, Hafiz Həsənov Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham edilir. Məhkəmənin qərarı ilə onun barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

❑ “Yeni Müsavat”

# İcra başçılarının “pul xərcləmək yarışı”- sensasion iddia

## İlin son rübündə “tender canlanması”nın arxasındakı sirr

**“Azərbaycanda bir sıra icra hakimiyyətləri sanki yarışa giriblər. Bu qurumlar ilin sonlarına yaxın xeyli fəallaşıblar. Belə ki, təkcə oktyabrın 21-də üç rayonun İcra Hakimiyyəti tender keçirib”. Bu barədə Tribunainfo.az xəbər verib.**



Bildirilir ki, həmin tenderlərdən birini Saatlı Rayon İcra Hakimiyyəti reallaşdırıb. “Saatlı şəhəri ərazisində yolların əsaslı təmiri işlərini əhatə edən müsabiqənin qalibi "RAPID SERVICES AZERBAIJAN" MMC, dəyəri isə 785 min 163 manat olub. İkinci tender xəbəri isə Ucardan gəlib. Rayon icra hakimiyyəti Ucar şəhərində yolların əsaslı təmir işlərinin satın alınmasını həyata keçirəcək. Bununla əlaqədar “AQROYOL-İNŞAAT” MMC ilə müqavilə bağlanıb. Onun dəyəri isə 336 min 310 manat təşkil edib. Ötən həftə rayondakı abadlıq işlərini un istehsal edən şirkətə həvalə edən Tovuz İcra Hakimiyyəti isə “qəfil dönüş” edib. Belə ki, sözügedən qurum Tovuz rayonunda mənzil fondunun əsaslı təmiri işlərini “AZƏRTRANSS” MMC-yə tapşırıb. Bununla əlaqədar tərəflər arasında 134 min 489 manatlıq müqavilə imzalanıb", - xəbərdə deyilir.

Ekspertlər ilin sonuna doğru icra hakimiyyətlərinin intensiv tender keçirmələrini təsadüfi hesab etmirlər. Bildirirlər ki, bu intensivlik İcra Hakimiyyətlərində büdcə qalıqları ilə bağlıdır. Belə ki, bu dövlət qurumları ilin sonuna kimi onlara ayrılmış büdcəni xərcləməlidirlər. “Əks təqdirdə, növbəti büdcə ilində xərclənməyən hissə qədər ayrılmalar azaldılır. Yəni növbəti ildə icra hakimiyyətləri daha az büdcə almalı olurlar. Ona görə də ilin sonuna kimi ayrılan büdcəni xərcləyirlər ki, növbəti il az büdcə almasınlar”.

**“Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri, sabiq maliyyə naziri Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, yerlərdə belə “tender canlanması” anlaşılandır:** “Yerli icra başçıları yaxşı başa düşürlər ki, ilin sonuna qədər onlara ayrılan vəsaitlərdən maksimum istifadə etməsələr, xərclənməyən pullar ilin sonunda geriyə, xəzinədarlığın hesabına qaytarılacaq. Digər tərəfdən, ilin sonuna yaxın büdcə xərclərinin artması yeni ənənə deyil. Biz əgər büdcədən xərcləmələrin zamanla həcmlərinə baxsaq, ilin son rübündəki xərcləmələrin ilin digər rübləri ilə müqayisədə daha artıq olduğunu görə bilərik. Xərclərin ilin sonunda daha çox olmasını şərtləndirən bir başqa səbəb isə il ərzində yerinə yetirilmiş layihələr üzrə borcların tam bağlanması kimi öhdəliklərin icrası ilə də bağlı olur”.

**Fikrət Yusifov qeyd etdi ki, icra başçıları ilin sonuna yaxın “tender canlanması”nın bir başqa və əsas səbəbi, mərkəzdən ayrılan vəsaitlərin yerlərə məhz indi daxil olması ilə bağlıdır:** “Yəni yerli İcra hakimiyyətləri büdcələrinə subsidiya daxil olan kimi nəzərdə tutulmuş tenderləri də tez bir zamanda keçirib həm də "öz maraqlarını" reallaşdırmağa can atırlar. Hər kəsə məlumdur ki, tenderlərin keçirilməsində heç də həmişə şəffaflıq təmin olunmur. Buna dair çoxsaylı faktlar sadalamaq mümkündür. Şübhə etməyin ki, “tender canlanması”nın başlıca səbəbi də elə budur... Bütün bunlar və icra hakimiyyətlərinin fəaliyyətindəki, digər ciddi nöqsanlar bir daha sübut edir ki, sovetlər dönəmindən “yadigar qalmış” bu paslanmış idarəçiliyin ləğv edilməsinin zamanı çatıb".

**REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli** isə bildirdi ki, ilin üçüncü rübünün sonu, dördüncü rübündə rayon İcra Hakimiyyətlərinin büdcə xərclərinin kəskin şəkildə artması kimi anormal tendensiya illərdir müşahidə olunur: “Bəzi hallarda dördüncü rübdə xərclənən vəsait ilin üç rübündə xərclənən vəsaitdən çox olur. Təəssüf ki, belə bir yanaşma müşahidə olunur. Büdcədəki vəsaitə qənaət olunubsa, bu o demək deyil ki, qənaət olunmuş vəsait ilin son rübündə mütləq xərclənməlidir. Büdcə qanununa görə, xərclənməyən vəsait ilin sonunda dövlət büdcəsinə geri qaytarılmalıdır. Lakin icra hakimiyyətləri bunu etmirlər və müxtəlif tenderlər vasitəsilə vəsaiti bölüşdürürlər. Bu səbəbdən də ilin son aylarında tenderlərin sayında ciddi artım müşahidə olunur. Ən acınacaqlısı odur ki, hər il bu praktika təkrar olunur”.

❑ Etibar SEYİDAĞA,
“Yeni Müsavat”



# Bakının iki rayonunda böyük söküntü başlayır

**Bakı şəhərinin Sabunçu və Suraxanı rayonları ərazisində yerləşən istismar müddəti bitmiş qəzalı binaların söküntü işləri aparılacaq. “Trend” xəbər verir ki, söküntü işləri Sabunçu rayonunun Q.Vəzirov küçəsi, döngə 2, bina 5 və 6, Sabunçu rayonunun Y.Qasımov küçəsi, ev 39 və Suraxanı rayonunun Xanlar Ələkbərov küçəsi, ev 43 ünvanlarında yerləşən istismar müddəti bitmiş qəzalı binaları əhatə edəcək.**

Belə ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyindəki Ərazi Tikinti-Planlaşdırma Mərkəzi söküntü işlərinin təşkilinin layihə-smeta sənədlərinin hazırlanması ilə bağlı müvafiq işlərə yekun vurub.

Qurum sözügedən işlərin icrasını “Global Engineering Management Company” Məhdud Məsuliyyətli Cəmiyyətinə (MMC) həvalə edib və müqavilə bağlayıb. Müqaviləyə əsasən, şirkətə 21 948 manat ödənilib.



# Məktəb direktoru bu nöqsanlara görə işdən qovuldu

**Biləsuvar rayonu Amankənd kənd ümumi orta məktəbin direktoru Anar İmanov işdən azad edilib. Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, daxil olmuş vətəndaş müraciəti əsasında Biləsuvar rayonu Amankənd kənd ümumi orta ümumtəhsil məktəbində araşdırma aparılıb.**

“Araşdırma nəticəsində məktəbin direktoru Anar İmanovun əmək funksiyasını və əmək müqaviləsi üzrə öhdəliklərini düzgün yerinə yetirmədiyi, təhsilverənlərin etik davranış qaydalarını, eyni zamanda mövcud təlimatların tələblərini pozduğu, bununla yanaşı, təhsil müəssisəsində təlim-tərbiyə prosesinin, əmək və icra intizamının pozulduğu aşkar edilib. Aşkar edilmiş nöqsanlara görə Anar İmanovla bağlanmış əmək müqaviləsinə xitam verilib”, - məlumatda qeyd olunub.



# Daxili İşlər Nazirliyinə yeni səlahiyyət verildi

**Daxili İşlər Nazirliyinə yeni səlahiyyət verilib. Bununla bağlı baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, emal edilməmiş almazın idxal və ixracı zamanı emal edilməmiş almazlar kənar müdaxilədən qoruyan və müdaxilə edildikdən sonra ilkin formaya qayıtmasını istisna edən konstruktiv quruluşa malik təhlükəsiz bağlamalarda daşınmalı, bağlamalara müvafiq eyniləşdirmə vasitələri (plomblar, möhürlər, ştamplar və s.) tətbiq olunmalıdır.**

Emal edilməmiş almazın idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi zamanı mühafizənin təşkilini Daxili İşlər Nazirliyinin silahlı ekipajı ödənişsiz qaydada həyata keçirir.

Qərar ölkəmizin “Kimberli Prosesinin Sertifikatlaşdırma Sxemi”nə qoşulduğu gündən qüvvəyə minir.



## Milli Şuraya “mitinq sifarişi”

### Əli Kərimli Ramiz Mehdiyevin vəzifədə saxlanmasına dəstək verib?

**“Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Musayev Milli Şuranın 19 oktyabr 2019-cu il tarixli mitinqi barədə maraqlı mülahizə irəli sürüb.**

Baş redaktorun ehtimalına görə, həmin aksiya Prezident Adminstrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin bu vəzifədən kənarlaşdırılmasının qarşısını almağa hesablana bilər.

Alqış Musayevin Facebook platformasında paylaşdığı həmin fikirləri təqdim edirik: "19 oktyabr 2019 -cu ildə özünü “Milli Şura” adlandıran müxalif kəsim Bakıda razılaşdırılmamış aksiya kecirməyə cəhd etdi...

3 gün sonra, 23 oktyabr 2019-cu ildə Ramız Mehdiyev Prezident Aparatından kənarlaşdırılıb, Sovet “KQB”sinin “arxa bağcası” sayılan Elmlər Akademiyasına göndərildi. Bu iki tarix arasında bağlılıq varmı? Əlahəzrət məntiq deyir ki, 19 oktyabrda Bakıda icazəsiz mitinq keçirmək istəyi Mehdiyevin 23 oktyabrda vəzifədən uzaqlaşdırılmasını əngəlləməyə hesablanmışdı. Bu o vaxt idi ki, Azərbaycan Vətən müharibəsinə hazırlaşırdı. İlham Əliyev komandada təmizlənmə prosesini başlatmışdı".

**Ədalət Hüquq Demokratiya Partiyasının sədr müavini Niyaməddin Orduxanlı** “Yeni Müsavat”a bildirdi ki, yazılanların dəqiq olması tamamilə mümkündür: “Milli Şura, Əli Kərimli həmişə həm daxilidən, həm də xaricdən sifariş alıb. Əli Kərimlinin bütün siyasi fəaliyyəti sifarişlərin icrası ilə əlaqəli olub. Milli Şura hələ yarananda Azərbaycan ictimaiyyətinə bəlli idi ki, bu qurum kənar qüvvələrin və ya xarici dairələrin təşəbbüsü ilə yaradılıb. Daha dəqiqi, Rusiyanın istəyi ilə yaradılmışdı. Deməli, Rusiyanın adamı olan Ramiz Mehdiyevin də Milli Şuraya sifariş vermək "hüququ" ilk vaxtdan olub. Milli Şura dəfələrlə Rusiyanın maraqlarına, eləcə də Ramiz Mehdiyevin marağına xidmət edən müxtəlif aksiyalar, mitinqlər keçirib. Bu qurumu idarə edən Əli Kərimlidir. Əli Kərimli isə xaricdən və daxildə Ramiz Mehdiyev kimi məmurlardan verilən sifarişləri yerinə yetirib. Sifarişlər sırasında mitinq keçirmək, görüntü yaratmaq da təbii ki, olub".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Xarici kəşfiyyatda Mehdiyev haqda kompromat

## YAP-ın yaradıcılarından biri PA-nın sabiq rəhbəri haqda danışmaq istəmədi: “Yıxılana balta vurmaq” mənim sənətim deyil"



**“Rusiyanın Ramiz Mehdiyevi ifşa etməsi ondan xəbər verir ki, Moskvanın əlində bilmədiyimiz daha ciddi faktlar var. Zənnimcə, Rusiya kəşfiyyatı bu məlumatları Azərbaycanla bölüşmüş ola bilər. Hazırda istintaq getdiyi üçün Mehdiyevin çevriliş planı haqqında daha az məlumatlıyıq”. Politoloq Rəmiyyə Məmmədova tribunainfo.az-a açıqlamasında belə deyib.**

Onun fikrincə, Mehdiyevin ifşası Kremlin də maraqlarına uyğundur: “Rusiya Azərbaycanla münasibətləri yaxşılaşdırmaq istiqamətində addım atdığını nümayiş etdirmək istəyir. Ancaq bəlli olur ki, Mehdiyevin hərəkətləri çoxdan gözlədilib və sonda yekun qərar verilib. Onunla əlbir olan bütün qüvvələr bir-bir istintaqa cəlb olunacaq. Məncə, daha səs-küylü prosesin şahidi ola bilərik”.

“Ramiz Mehdiyevin gücü tutduğu vəzifədə və hüdudsuz səlahiyyətlərdə olub. Mən onun işsiz vaxtlarını yaxşı xatırlayıram, o zaman əlaqələrimiz vardı. O, olduqca küncə sıxışdırılmış, tamamilə cəmiyyətdən təcrid olunmuş, heç kimə lazım olmayan, Xalq Hərəkatının güclü dövrlərində heç bir əhəmiyyətliliyi olmayan adam idi”.

**Bunu Haqq və Ədalət Partiyasının sədri, eks-səhiyyə naziri Əli İnsanov** TV Musavata müsahibəsində Ramiz Mehdiyevin həbsi ilə bağlı danışarkən deyib.

“Həbsxanaya düşsə, tezliklə ölə bilər. Dözməz o şəraitə. İradəsi zəif adamdır. Onun burnunu tutsan, canı çıxar, dözməz orada. Ölər, işlər də yarımçıq qalar. Ona görə həbsxanaya yerləşdirməzlər ki, orada bir həftəyə ölər. Onda kimdən soruşacaqlar, niyə belə etmisən?”, - deyə Əli İnsanov bildirib.

“Mehdiyev ömrü boyu idarə olunub, o, heç kimi idarə etməyib. O cür adamlar isə heç vaxt yetişmir, sadəcə meydana gəlir. Bəs necə oldu ki, Ramiz Mehdiyev yenidən hakimiyyətə gəldi? O zaman Rusiya təkid və təklif etdi ki, Mehdiyev yenidən hakimiyyətə gəlsin. Müdrik Heydər Əliyev isə bir balaca Ramiz Mehdiyevə görə Rusiya ilə mübahisəyə girişməzdi. Sonra bir müddət yaddan çıxdı, amma hər birimizə ayrı-ayrılıqda məlumatlar gəlirdi ki, bu adam Rusiyanın dediklərini yerinə yetirir, Azərbaycanın görkəmli siyasətçilərini, insanlarını rusiyapərəst etmək üçün iş aparır. Buna da müəyyən qədər nail oldu”, - deyə keçmiş nazir əlavə edib.

**YAP-ın əsas yaradıcılarından biri, partiya sədrinin keçmiş müavini, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri, professor Əli Nağıyev** “Yeni Sabah”a Ramiz Mehdiyevlə bağlı proseslərdən danışıb. Ə.Nağıyev deyib ki, Heydər Əliyev hakimiyyətdə olanda Ramiz Mehdiyev haqqında bütün sözlərini deyib: “Amma "yıxılana balta vurmaq" mənim sənətim deyil. Ona görə də indi heç nə danışmaq istəmirəm. Bunlar mənə aid söhbətlər deyil. Araşdırma aparsanız, görərsiniz ki, Heydər Əliyev Prezident olduğu dövrdə mən deyəcəyim bütün fikirləri səsləndirmişəm. İndi baş nazirin müavini olan Yaqub Eyyubovdan soruşa bilərsiniz ki, 1995-ci ildə o, deputat olmaq istəyəndə Əli Nağıyev televiziyada necə çıxışlar edib? Ondan sonrakı dövrlərdə isə Prezident Administrasiyasında bir köstəbək var idi. O da gözəl bilirdi ki, mən kabinetdə oturanların üzünə necə sözlərimi demişəm".

**O, Ramiz Mehdiyevin niyə məşhur “91-lər”ə qoşulmaması barədə də danışıb:** “YAP-ı mən Heydər Əliyevlə birlikdə yaratmışam. Sözsüz ki, Əliyevçi mübariz ətrafımla birlikdə. "91-lər"i də mən yaratmışam. Çox gözəl bilirəm ki, orada kimlər var, kim səmimidir, kim saxta. Siyahıda elə adam var idi ki, hətta nə üçün orada olduğunu belə bilmirdi. Bu gün tarix pozulur. Kimlərsə, özünü o tarixə dürtmək istəyirlər deyə, tarixi əyri yazırlar, həqiqəti saxtalaşdırırlar. Belə olmaz. “91-lər”in yaradılması təbliğat üçün lazım idi. Bir də Heydər Əliyev istəyirdi bilsin, insanlar bu məsələyə necə münasibət göstərir. Mən bunu Sirusa dedim. O da yazıb gətirdi, mən də onun surətini çıxarıb həmin dövrdə Azərbaycan Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutunun direktoru olan Əli İnsanova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Həsən Mirzəyevə, AMEA-nın Kimya Problemləri İnstitutunun direktoru Ramiz Rizayevə, Səbayel rayonunun keçmiş katibi, Azərbaycan Tibb Universitetinin professoru Xəlil müəllimə, Azərbaycan Dövlət Pedaqoji Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Zahid Qaralova, Bakı Dövlət Universitetindən Səfiyar Musayevə və digər şəxslərə göndərmişəm. Belə-belə hər təşkilatdan 3-5 imza yığılıb və həmin “91-lər” adlanan müraciət qəzetdə dərc olunub. “91-lər”i əldən keçirsək, gərək hazırda yuxarı mərtəbədə oturanların çoxu ölsün, yerə girsin. Onların hamısı təsadüfən oraya gəlib çıxanlardır. Ona görə də mən bu siyahıya böyük məna vermirəm".

**Xalq artisti Şeyx Əbdül Mahmudovbəyov da Mehdiyevlə aralarındakı** konfliktdən də danışıb. “Əli Həsənov bizi Prezident Aparatına çağırdı. Dedi ki, Kinematoqrafçılar İttifaqını bərpa eləmək lazımdır, prezidentin tapşırığı var. Dedi, sədr olaraq kimi görürsən? Dedim, Eldar Quliyevi, Oqtay Mirqasımovu, Cəmil Quliyevi. Məni soruşdu, dedim, yox mən kino çəkənəm. 1 ay keçmişdi ki, eşitdik, Şəfiqə Məmmədova ittifaqa sədr seçilib. Kinoya xəyanət birinci oradan başladı. Ramiz Mehdiyevgilin bir xəyanəti də mənimlə bağlıdır. O vaxt "Qan yaddaşımız: Tarixi erməni yalanları" adlı bir veriliş aparırdım. Məni çağırdılar ki, veriliş dayandırılmalıdır, qarışıqlıq yaradırsan. Axırda məni işdən çıxardılar, verilişi də dayandırdılar. Ramiz Mehdiyevin təşəbbüsü ilə oldu bu. Növbəti məsələ də yenə mənə dəydi. Evimi uçurub yerində park salıblar. Hacıbala Abutalıbov kimi bir şoumen mənə dedi ki, Ramiz Mehdiyevlə aranı düzəltməsən, onun dediklərini eləməsən, sənin evini verə bilmərəm. Dedim, əlimdə məhkəmə qətnaməsi var. Dedi, məhkəmə qətnaməsi mənim üçün kağız parçasıdır. Ramiz Mehdiyev nə desə, onu edəcəm".

Media R.Mehdiyevə yaxın olmuş kadrlarla bağlı araşdırmalarını davam etdirir və yeni bir ad da ortaya çıxıb. Söhbət sabiq kənd təsərrüfatı naziri Heydər Əsədovdan gedir. O, 2013-2019-cu illərdə kənd təsərrüfatı naziri, 2019-dan sonra Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru olub. 2024-cü ildə keçirilən növbədənkənar parlament seçkilərində 51 saylı Şirvan dairəsindən Milli Məclisin VII çağırış deputatı seçilib.

Verilən məlumatlarda Əsədovun karyerasının Mehdiyevə bağlı olduğu iddia edilir. Mətbuatda illərdir onun sabiq nəqliyyat naziri Ziya Məmmədovla qohumluğu yer alıb. Ziya Məmmədovun isə Ramiz Mehdiyevlə əlaqələri artıq kimsəyə sirr deyil. Ziya Məmmədovun qardaşı Elton Məmmədovun Ramiz Mehdiyevin AMEA prezidenti olduğu zaman elə akademiyada ən yüksək vəzifə alması bunun göstəricisidir.

YENİ MÜSAVAT
N 193 (8803) 24 oktyabr 2025

# Şuşa razılaşmasının hərbi bəndi işə düşdü - təfərrüat

## Xüsusi təyinatlılarımız Birləşmiş Ərəb Əmirliklərinin bölmələri ilə təlimlərə başlayıb; Azərbaycan hərbi müttəfiqlik arealını genişləndirir



**Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri (XTQ) və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezident Qvardiyasının Xüsusi Əməliyyat Komandanlığı bölmələrinin iştirakı ilə birgə təlimlərə başlayıb. Tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Ələkbər Cahangirov çıxış edərək bildirib ki, təlimin əsas məqsədi ölkələrimizin XTQ mənsubları arasında əməkdaşlığın genişləndirilməsi, praktiki vərdişlərin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və hərbi qulluqçularımızın peşəkar inkişafına xidmət etməkdir.**

Təlim iştirakçıları real döyüş şəraitinə uyğunlaşdırılmış ssenarilər üzrə qarşılıqlı koordinasiya və idarəetmə bacarıqlarını praktiki olaraq inkişaf etdirəcəklər.

Taktiki fəaliyyətlər zamanı iştirakçılar manevr qabiliyyətini, çeviklik və liderlik vərdişlərini təkmilləşdirəcək, eləcə də hər iki ölkənin xüsusi təyinatlılarının təcrübəsindən bəhrələnərək, tətbiq edilən forma və üsulları mənimsəyəcəklər. Sonra təlim iştirakçıları üçün yaradılmış şəraitə baxış keçirilib. Qeyd edək ki, zirehli texnika, ordu aviasiyası və pilotsuz uçuş aparatlarının cəlb edildiyi birgə təlimində bölmələr döyüş taktikaları üzrə atəş, desantlaşma, snayper fəaliyyəti, düşmən obyektlərinin sıradan çıxarılması, eləcə də yaşayış məntəqəsinin düşməndən təmizlənməsi mövzuları üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetirəcəklər.

Son illərdə Azərbaycanın Avropa ölkələri, Türk dünyası ilə olduğu kimi, ərəb dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın yaxşı münasibətlərə malik olduğu ərəb dövlətlərindən biri də BƏƏ-dir. BƏƏ 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanıyıb və 1992-ci il sentyabrın 1-də ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. Ölkələrimiz arasında iqtisadi əlaqələr də yüksək səviyyədədir. Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya mövcuddur.

Sentyabrda Prezidenti İlham Əliyev və BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Şuşaya birgə səfər ediblər. BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə budəfəki səfəri çərçivəsində sentyabrın 16-da Şuşada 14 sənəd imzalandı. Bunların ən önəmlisi isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"dir. Bu bəyannamə iki ölkə arasında münasibətlərin yeni, daha yüksək səviyyəyə qalxmasını ifadə edir və siyasi, iqtisadi, təhlükəsizlik, enerji və digər sahələrdə əməkdaşlığın sistemli şəkildə genişləndirilməsini nəzərdə tutur. O cümlədən tərəflər müdafiə və təhlükəsizlik sahələrində, xüsusən də kibertəhlükəyə qarşı birgə mübarizəni genişləndirməyi planlaşdırırlar. Müdafiə sistemlərinin yaradılması və regional sabitliyin qorunması baxımından vacibdir.

Bəyannamənin 8-ci bəndi təhlükəsizlik məsələlərində məsləhətləşmələrlə bağlıdır. Bu bənd tərəflərə milli və regional təhlükəsizliyə təhdid yaradan vəziyyətlərdə qarşılıqlı məsləhətləşmələr aparmaq imkanı verir. Xüsusi halda, komitə çərçivəsində fövqəladə iclasların keçirilməsi razılaşdırıla bilər. Bu mexanizm tərəflərin təhlükəsizlik məsələlərində vahid mövqe formalaşdırması, mümkün risklərə vaxtında və koordinasiyalı reaksiya verməsi baxımından önəmlidir.

**Hərbi ekspert Ramil Məmmədli "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Ordusunun çoxtərəfli hərbi təlimləri davam edir:** "Bu hərbi təlimlər müxtəlif ölkələrin ordu birlikləri ilə birgə həyata keçirilir. Hazırda Birləşmiş Ərəb Əmirliyi ilə paralel Orta Asiya dövlətləri ilə də hərbi təlimlərimiz olub. Həmçinin dövlət başçısı Qəbələ zirvəsində türk dövlətlərinin birgə təlimlərinin keçirilməsini təklif edib. Eyni zamanda Azərbaycanın Türkiyə və Pakistanla hərbi təlimləri olub.

Bundan başqa, cənub qonşumuzla Xəzərdə dəniz qüvvələrinin hərbi təlimləri keçirilib. Yəni Ordumuzun hərbi təlimlərdə aktiv iştirakını müşahidə edirik. Bu həm peşəkarlığın artırılması baxımdan əhəmiyyətlidir, çünki ayrı-ayrı dövlətlərin təcrübəsinə yiyələnirik, həm də əməkdaşlıq əlaqələrini genişləndiririk. Burada məqsəd çoxşaxəli hərbi əməkdaşlıq siyasəti həyata keçirməkdir. Azərbaycan ərəb dünyası ilə siyasi-iqtisadi əlaqələrlə yanaşı hərbi sahədə də münasibətləri inkişaf etdirir".

**Hərbi analitik vurğuladı ki, BƏƏ ordusu müharibə görməyib, Azərbaycan Ordusu isə yeni savaşdan çıxıb:** "Bu mənada, biz də öz təcrübəmizi onlarla bölüşürük. Həmçinin ərəb əmirliyi ilə silah satışında da əməkdaşlığımız var. Yəni bu əlaqələr tərəfdaşlıq səviyyəsindən müttəfiqliyə qədər yüksələ bilər. Baxın, Azərbaycan ABŞ ilə də hərbi tərəfdaşlığı gücləndirmək niyyətindədir. Digər ölkələrlə də hərbi müstəvidə əlaqələri inkişaf etdiririk. Bu baxımdan, siyasətimiz çoxvektorludur".

**R.Məmmədli yada saldı ki, Əbu-Dabidə keçirilən "IDEX-2021" Beynəlxalq Müdafiə Sərgisində Azərbaycan silahları nümayiş etdirilib və bu da BƏƏ ilə əməkdaşlığın bir elementidir:** "Onu da deyim ki, Azərbaycanın Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə komandanı ilə görüşmüşdü. Bu da tərəfdaşlığın müxtəlif sahələri əhatə etdiyini deməyə əsas verir. Bizim hərbi əməkdaşlıq sektorunda addımlarımız türk-müsəlman dünyası ilə əlaqələri sıxlaşdırmaqdır. Bura Türkiyə və Pakistan başda olmaqla, göründüyü kimi, digər müsəlman dövlətləri də daxildir. Misal üçün, Bakıda "Sonsuz qardaşlıq - IV" təlimində iştirak edən ölkələrdən biri də Qətər idi. O cümlədən Azərbaycan Səudiyyə Ərəbistanı ilə əlaqələr qurub. Bir sözlə, zəfərdən sonra hərbi əməkdaşlıq doktrinamız və siyasətimiz genişlənir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Müdafiə Nazirliyinin rəsmiləri Səudiyyə Ərəbistanında

**Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi və onun rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilən Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının Müdafiə nazirlikləri arasında Birgə Hərbi Komitənin görüşündə iştirak etmək məqsədilə bu ölkəyə səfər edib.**

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətini Səudiyyə Ərəbistanı Krallığı Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Faiyad bin Hamed Al Rovaili qəbul edib. Daha sonra isə Səudiyyə Ərəbistanı Krallığının Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin baş direktoru general-mayor Saad bin Məhəmməd Əl-Kəsiri ilə görüş keçirilib.

Görüşlərdə Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığının müdafiə qurumları arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Müdafiə Nazirliyi arasında keçirilmiş Birgə Hərbi Komitənin görüşünün Protokolu" imzalanıb.



# Hərbi İdarəetmə İnstitutunda Gürcüstan heyəti ilə görüş

**Bakıda Milli Müdafiə Universitetinin (MMU) və Gürcüstanın Milli Müdafiə Akademiyasının STANAG komissiyaları arasında işçi görüşü keçirilib.**

MMU-nun Hərbi İdarəetmə İnstitutunda keçirilən görüşdə qonaqlara Xarici dil mərkəzinin tarixi və fəaliyyət istiqaməti barədə brifinq təqdim olunub.

Nümayəndə heyətinin rəhbəri mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

İşçi görüşündə ingilis dilindən STANAG testlərinin tərtib edilməsi üzrə təcrübə mübadiləsi, test materiallarının moderasiya edilməsi, qarşılıqlı istifadəsi və sınaqdan keçirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, NATO-nun standartlaşdırma sənədi olan STANAG üzv dövlətlərin qarşılıqlı fəaliyyət tələblərinə cavab vermək üçün standartın tam və ya qismən, şərti və qeyd-şərtsiz həyata keçirilməsinə dair razılığını müəyyən edir.

YENİ MÜSAVAT

N 193 (8803) 24 oktyabr 2025

# Hərbi büdcəmiz azaldılır - daha müharibə olmayacaq?

## Azərbaycan dünyada gedən prosesləri yaxından izləyir və buna uyğun da addımlar atır

**Azərbaycan Maliyyə Nazirliyi növbəti beş il ərzində müdafiə xərclərinin azaldılmasını açıqlayıb. Nazirlik qeyd edib ki, müdafiə xərcləri 8,6% azalacaq, ölkə 2030-cu ildə orduya 4,7 milyard dollar xərcləməyi planlaşdırır.**

Plana əsasən, 2026-cı ildə müdafiə xərcləri təxminən 5,12 milyard dollar olacaq ki, bu da ölkənin ümumi büdcə xərclərinin təxminən 21 faizini təşkil edəcək. Üç ildən sonra hərbi xərclərin büdcənin 18,4%-ni təşkil edəcəyi gözlənilir. Yeri gəlmişkən, ölkənin hazırkı büdcəsində müdafiəyə 5 milyard dollar vəsait ayrılıb. 2005-2025-ci illərdə Azərbaycan dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik üçün təxminən 58 milyard manat vəsait ayırıb.

Yada salaq ki, uzun illər, hətta Vətən müharibəsində qələbə qazandıqdan sonra belə, Azərbaycan Ermənistanla uzun sürən müharibəyə görə müdafiə büdcəsini artırmağa məcbur olub. Azərbaycan işğalçı Ermənistanı məğlub etdikdən və onun suverenliyini və ərazi bütövlüyünü bərpa etdikdən sonra hərbi xərclərin artırılması zərurəti aradan qalxıb. Ekspertlərə görə, bu, beynəlxalq ictimaiyyətə bir siqnaldır ki, militarizasiyadan və böyük hərbi xərclərdən əl çəkməyin vaxtı çatıb.

Cənubi Qafqaz regionunda xarici aktorlar yenidən Ermənistanı qızışdırarsa və ya revanşist qüvvələri müharibəyə təhrik edərsə, Azərbaycan hökuməti Azərbaycan Ordusunu gücləndirmək üçün müvafiq tədbirlər görməyə məcbur olacaq.

**Sabiq maliyyə naziri, professor, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov hesab edir ki, buna getməməliyik:** "Bölgədə sülhün və əmin-amanlığın mövcud olduğu bir şəraitdə hərbi xərclərin artırılması məntiqsiz görünə bilər. Lakin biz yalnız sülhə və əmin-amanlığa söykənərək dövlətimizin müdafiəsinin hər hansı bir formada zəifləməsinə yol verə bilmərik. Əvvəla, torpaqlarımızın otuz illik işğal altında qalması dərsləri fonunda buna getməməliyik. Digər tərəfdən, şimal və cənubda şıltaq qonşularımızın olması və onların nə vaxt necə davranacaqlarına hər hansı bir təminatın mövcud olmadığı təqdirdə, bizim müdafiə məsələlərində hər hansı bir boşluqlara yol verməyə haqqımız yoxdur. Baxın, Avropa dövlətləri zamanla bu məsələdə yol verdikləri boşluqların bədəlini bu gün necə ödəyirlər. Almaniya başda olmaqla, Avropa İttifaqına daxil olan bütün digər ölkələr yalnız Rusiyadan müharibə təhdidləri qapının ağzını kəsdikdə qəflət yuxusundan ayıldılar və hərbi sənayeni sürətlə inkişaf etdirmək üçün dərindən-qabıqdan çıxmağa başladılar. İndi onlara mümkün hərbi basqılara cavab verə biləcək hərbi sənayeni qurmaq və ölkələrinin müdafiə qüdrətini artırmaq üçün ən azından 5-8 il vaxt lazımdır. O səbəbdən biz də heç kimə və heç nəyə güvənməməliyik. Hərbimiz dünya hərbinin ən müasir texnologiyaları ilə daima təchiz edilməli, hərbi sənayemiz isə yüksələn xətlə inkişaf etdirilməlidir. Heç bir dövlət öz büdcəsindən ona lazım olmayan xərcləri maliyyələşdirməz. Biz hərbi xərclərin uzaq perspektivdə azaldılması üzərində düşünə və hətta bunu proqnozlaşdıra bilərik. Ancaq mən düşünürəm ki, hərbi xərclərimizin yaxın və uzaq perspektivdə hansı səviyyədə olmasını biz deyil, yerləşdiyimiz regionda və dünyada baş verəcək siyasi hadisələr və hərbi münaqişələr müəyyən edəcək.



Müstəqillik dönəmində Azərbaycan hökuməti bir daha əmin oldu ki, beynəlxalq hüquq heç də həmişə lazım olan səviyyədə işləyə bilmir və bəzən ümumiyyətlə işləmir. Biz 44 günlük müharibə yolu ilə beynəlxalq hüququ işə sala bildiksə, deməli, gücümüz bütün hallar üçün həmişə yerində olmalıdır. Çünki güclü ilə hesablaşır və onun dediklərini eşidirlər".

**"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi təhlilçi Emin Həsənli də fərqli düşünmür:** "Hər il həm dövlət, həm də hərbi büdcəmiz artır. Ümumilikdə götürdükdə əvvəlki illərlə müqayisədə heç də azalma olmayacaq. Dünyada gedən prosesləri Azərbaycan izləyir. Daim çağırışlar edirik ki, sülh olsun. Təsəvvür edin ki, dünyada hərbi büdcələrə vəsait ayrılmır. Bir anlıq düşünün ki, sosial problemlər olmaz. Azərbaycan uzun illər işğala məruz qaldı. Bir milyondan çox məcburi köçkünümüz var idi. Onun üçün də dövlətimiz daim hərbi büdcəsini artırır ki, torpaqlarını azad etsin. İndi torpaqlarımızı azad edib, bərpa-quruculuq işləri ilə məşğuluq. Böyük şəhərlərimizdən Qarabağa axın başlayacaq ki, bu da sıxlığın qarşısını almaqla yanaşı, bütün sahələrə öz töhfəsini verəcək. Dünyada gedən prosesləri yaxından izləyirik və buna uyğun da addımlar atırıq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Sülh danışığı gözlərkən "qara xəbər" gəldi

## Politoloq: "Putini sülhə gətirmək üçün 9 aylıq cəhdlər nəticə vermədikdən sonra..."

**ABŞ Prezidenti Donald Tramp Rusiya lideri Vladimir Putinlə Budapeştdə planlaşdırılan görüşü ləğv etdiyini açıqlayıb. Tramp NATO-nun baş katibi Mark Rutte ilə görüşdə deyib: "Bu, yanlış hiss idi. Mənə elə gəldi ki, biz lazım olan məqsədə çata bilməyəcəyik".**



Eyni zamanda ABŞ Prezidenti əlavə edib ki, gələcəkdə rusiyalı həmkarı ilə görüşməyi planlaşdırır. Tramp digər açıqlamasında bildirib: "Rusiyaya qarşı yeni sanksiyaların mütləq təsiri olacaq".

Görüşdən əvvəl ABŞ Maliyyə Nazirliyi "Rosneft", "Lukoil" və onların 34 törəmə şirkətinə qarşı məhdudiyyətlər elan edib. Tədbirlər Moskvanın Ukraynadakı münaqişəni həll etmək istəməməsi ilə əsaslandırılıb. "Bunlar böyük sanksiyalardır və ümid edirik ki, onlar uzun sürməyəcək", - Ağ Ev rəhbəri deyib.

Amerika lideri bəyan edib ki, tərəflər təmas xətti boyunca mövcud mövqelərini müəyyən etməli və hərbi əməliyyatları dayandırmalıdır: "Rusiya bütün Ukraynaya nəzarət etmək istəyir, lakin güzəştə getməyə hazırdır. Hesab edirəm ki, Co Bayden administrasiyası dövründə Vaşinqton ammaqcasına Kiyevə 350 milyard dollar silah və pul bağışladı".

"ABŞ başqalarına "Tomaqavk" raketlərindən necə istifadə etməyi öyrətməyəcək. Bu, çox güclü silahdır, çox dəqiq silahdır və bəlkə də buna görə bu qədər mürəkkəbdir. Ondan istifadə etməyi öyrənmək bir illik intensiv təlim tələb edir", - o əlavə edib.

**Tramp daha sonra bildirib:** "İddialara görə, Ukrayna Rusiyanın dərinliklərinə zərbələr endirmək üçün Amerika raketlərindən istifadə edir. Amma elə deyil. Vaşinqton Kiyevə silah satmır, bunu NATO ölkələri edir".

Ötən həftə Rusiya Prezidenti amerikalı həmkarı Donald Trampla Ukraynadakı vəziyyəti müzakirə etmək üçün telefon danışığı aparıb. Söhbətdən sonra Ağ Ev rəhbəri Putinlə Budapeştdə görüşməyi planlaşdırdığını açıqlayıb. Görünür, son siyasi proseslər Trampın görüşü ləğv etməsinə təsir edib.

"Rusiya SSRİ-nin parodiyasıdır, onun üçün eyni taleyin təkrarlanacağını istisna etmirəm". Bunu **Ukrayna Prezidenti Administrasiyasının rəhbəri Andrey Yermak** deyib. O, bildirib ki, Rusiya müharibənin son nəticədə onu məhv edəcəyini anladıqda dayanacaq: "Rusiyanın daha da zəifləməsi üçün hərtərəfli proses gedir. Sanksiyalar müharibəni bir anda dayandıra bilməz, amma Rusiya iqtisadiyyatına zərbə vurur. Kölgə donanmasına qarşı sanksiyalar da ona çox ağır zərbə vurur. Rusiyanın dərinliyinə zərbələr, "Hörümçək toru" kimi əməliyyatlar - bunların hamısı birlikdə işləyir.

Əlbəttə, Putin bu fonda "uğurları" barədə yalan danışmağa davam edir, ona illüziya yaratmaqdan başqa nə qalıb? Ruslar hələ də gücləndiklərinə inanırlar. Amma bu, belə deyil, zəif vəziyyətdədirlər. Zaman da onların əleyhinə işləyir, bunun əvəzini sözün əsl mənasında canları ilə ödəyirlər".

Yermakın sözlərinə görə, ruslar artıq başa düşürlər ki, Rusiya böyük olsa da, Ukraynanın əlləri onun hər yerinə çatır: "Müharibə artıq onların ərazisinə yayılıb".

**Politoloq Şahin Cəfərli bildirir ki, Putini sülhə gətirmək üçün 9 aylıq cəhdlər nəticə vermədikdən sonra Tramp Rusiyaya qarşı təzyiq siyasətinə keçməyə məcbur oldu:** "Bunu əslində ənənəvi siyasətə dönüş kimi qiymətləndirmək lazımdır".

**Analitik proseslərin ardıcıllığına nəzər salıb:** "Tramp hökuməti Rusiyaya qarşı ilk sanksiyalarını açıqladı. ABŞ Maliyyə Nazirliyi Rusiyanın 2 böyük enerji şirkəti - "Rosneft" və "Lukoil"a qarşı (34 törəmə şirkətləri ilə bərabər) total sanksiyaların tətbiqi barədə qərar qəbul edib. Bazarın bu qərara reaksiyası - neftin bahalaşması sanksiyanın ciddi olduğunu göstərir. Bayden dövründə, o da prezidentliyinin son həftələrində, cəmi 2 Rusiya şirkətinə - "Qazpromneft" və "Surqutneftegaz"a qarşı bu tip sanksiya tətbiq olunmuşdu. Prezident Tramp öz növbəsində Putinlə planlaşdırılan görüşü ləğv edib. ABŞ maliyyə naziri Bessent bildirib ki, Rusiya mövcud təmas xəttində atəşkəsə razılaşmasa, sanksiyalar genişləndiriləcək. Daha bir vacib xəbər Rusiyanın 20 min ukraynalı uşağı oğurlaması səbəbi ilə terrorçu dövlət kimi tanınması haqqında qanun layihəsinin ABŞ Senatının Xarici Əlaqələr Komitəsində yekdilliklə qəbuludur. Yəni ki, bunu ənənəvi siyasətə dönüş saymaq olar".

Yeri gəlmişkən, NATO-nun baş katibi Mark Rutte Ukraynadakı münaqişənin həllindən danışıb. "Fox News" bildirir ki, NATO baş katibinin sözlərinə görə, atəşkəs münaqişənin sülh yolu ilə həllində ilk addım olmalıdır.

Rutte əlavə edib ki, Donald Trampın hərbi əməliyyatların tamamilə dayandırılması ideyasını dəstəkləyir.

❑ **"Yeni Müsavat"**

***Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələri Ermənistanın paytaxtı İrəvandan qayıdıblar.***

# İrəvandan qayıdan QHT sədri danışdı

## Rusif Hüseynov: "Armen Qriqoryanla görüş xüsusi əhəmiyyət daşıyırdı, çünki..."

Səfər çərçivəsində Azərbaycandan Ermənistana yollanan nümayəndə heyətinin tərkibinə Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri Fərhad Məmmədov, Topçubaşov Mərkəzinin həmtəsisçisi və direktoru Rusif Hüseynov, Milli QHT Forumu İdarə Heyətinin sədri Ramil İskəndərli, eləcə də Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin Qadınlar Sülh və Əmin-Amanlıq Mərkəzinin rəhbərləri Kəmalə Məmmədova və Dilarə Əfəndiyeva daxil olublar.

Onlar Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşüblər.

**Topçubaşov Mərkəzinin həmtəsisçisi və direktoru Rusif Hüseynov** Modern.az-a açıqlamasında bildirib ki, Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrindən ibarət heyətin Ermənistana səfəri əslində tarixi bir mərhələ kimi qiymətləndirilə bilər. "İndiyədək hər iki ölkənin müxtəlif ictimai-siyasi xadimləri, jurnalistlər, idmançılar, eləcə də bəzi hallarda deputatların müxtəlif qarşılıqlı səfərləri baş tutsa da, bu dəfə reallaşan səfər ilk dəfə olaraq ikitərəfli təşəbbüs və razılaşdırılmış çərçivə əsasında həyata keçirilib. Bu baxımdan səfəri yüksək qiymətləndiririk".

**R.Hüseynovun sözlərinə görə, səfərin əsas məqsədi 8 avqustda Vaşinqtonda baş tutan tarixi görüş və orada imzalanmış birgə bəyannamənin ruhuna uyğun olaraq sülh prosesinə vətəndaş cəmiyyətinin töhfəsini müəyyənləşdirmək, həmçinin bu prosesdə fəal iştirak etmək olub:** "Qrupumuz, ümumilikdə vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup adlandırılsa da, tərkibdə beyin mərkəzlərinin, media orqanlarının və müxtəlif qeyri-hökumət təşkilatlarının təmsilçiləri yer alıb. Bu da bizə qarşı tərəfdəki həmsöhbətlərimizlə hər iki cəmiyyəti maraqlandıran mühüm mövzuları qaldırmaq və konstruktiv müzakirələr aparmaq imkanı yaratdı.

Ünsiyyət əsasən, qeyd etdiyim kimi, konstruktiv mühitdə qurulmuşdu. Biz çalışdıq ki, konflikt və mübahisə doğura biləcək məsələlərdən uzaq duraraq daha çox ortaq məqamlara diqqət yönəldək. Təbii ki, bu proses hər iki xalq üçün həssas və emosional məna daşıyır. Azərbaycan nümayəndə heyəti olaraq biz də öz cəmiyyətimizin narahatlıqlarını, travmalarını və



gözləntilərini yaxşı bilirik və bu məqamları qarşı tərəfə aydın şəkildə çatdırdıq".

**O, Armen Qriqoryanla görüş barədə bunları deyib:** "Bu görüş xüsusi əhəmiyyət daşıyırdı, çünki İrəvana səfər etmiş azərbaycanlı nümayəndələr üçün Ermənistan dövlətinin mövqeyini, xüsusilə də sülh prosesinə rəsmi İrəvanın baxışını birbaşa öyrənmək mühüm idi. Görüş zamanı tərəflər sülh gündəliyinə dair bir sıra suallar qaldırdılar. Armen Qriqoryanın çıxışında da proseslə bağlı daha çox optimist və nikbin ruha köklədiyi hiss olunurdu".

❑ **"Yeni Müsavat"**

# Bakının Orta Asiyaya "yürüşü"- 5+1 formulu

## Azərbaycanın bu coğrafiyada fəal iqtisadi və siyasi aktora çevrilməsi uzunmüddətli strateji xəttin məntiqi nəticəsidir

**Rəsmi Bakı artıq Orta Asiya coğrafiyasında da fəal iqtisadi və siyasi aktora çevrilməkdə olduğunu ortaya qoyur. Azərbaycan Orta Asiya ölkələrinin gələcək iqtisadi həyatında da önəmli pay sahibinə çevrilməyi hədəfləyib.**




Azərbaycan-Mərkəzi Asiya münasibətləri vahid birliyə çevrilərək 6 formatını alıb. Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev X hesabında paylaşım edib. O qeyd edib ki, son aylarda Prezident İlham Əliyev Mərkəzi Asiya regionuna üç səfər edib - Türkmənistana, Tacikistana və Qazaxıstana: "Bu gün isə Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri həyata keçirir. Azərbaycan-Mərkəzi Asiya münasibətləri adətən 5+1 formulu ilə təsvir olunurdu. Bu, beş Mərkəzi Asiya dövlətini və ayrıca tərəfdaş kimi Azərbaycanı simvolizə edirdi. Lakin bu gün həmin formul sadəcə riyazi anlayışdan siyasi və tarixi reallığa çevrilib, hətta kimyəvi birliyə çevrilərək vahid 6 formatını alıb. Bu da inteqrasiyanın dərinləşməsini, ortaq tarix, mədəniyyət, ənənə, etnik və dil qohumluğu üzərində formalaşan vahid geosiyasi məkan və ortaq taleyi əks etdirir".

**Siyasi təhlilçi Sona Əliyeva dedi ki, Azərbaycan artıq Mərkəzi Asiya üçün birmənalı olaraq açar rolunu oynayır:** "Bir sözlə, Bakı Türküstan coğrafiyası üçün Rusiyadan qopma yolunda əsas nicat qapısıdır. İndi Orta Asiyadakı bütün dövlətlər, hətta Kreml də bunun fərqindədir. Bu baxımdan, 5+1 formatından 6 formatına keçid təbii haldır. Bu, 6 MDB ölkəsinin Rusiyanın təsir və təzyiqlərinə qarşı birgə hərəkəti labüdləşdirən, onun nəzəriyyədən praktikaya keçidini təmin edən incə nüansdır. Prezident İlham Əliyevin son aylarda Mərkəzi Asiya ölkələrinə uğurlu səfərləri də bunun aydın göstəricisidir. Orta Asiyadakı türk dövlətləri, eləcə də Tacikistan öz resurslarını dünyaya məhz Azərbaycan vasitəsi ilə çıxarmaqda maraqlıdır. Əslində "Bir kəmər-bir yol" layihəsi də Türküstan regionunu buna təhrik edir. İndi Azərbaycan Şərqdən Qərbə uzanan incə və perspektivli yoldur. 5+1 formatında təmsil olunan "beşlik" də bundan yararlanmaq istəyir. Azərbaycan iqtisadiyyatı Orta Asiyaya ayaq açır. Tacikistanla külək enerjisinin istismarı ilə bağlı önəmli razılaşmalar var. Özbəkistanla iqtisadi əməkdaşlıq da yüksələn xətlə inkişaf edir. Qazaxıstan da Azərbaycanla iqtisadi əlaqələri gücləndirməkdə maraqlıdır. Düşünürəm ki, yaxın illərdə bu dövlətlərlə ölkəmiz arasındakı ticarət dövriyyəsi Rusiya və İtaliyanı da keçəcək".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov qeyd etdi ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan regionda tamamilə yeni bir siyasi və geosiyasi mərhələyə qədəm qoydu:** "Bakı təkcə Cənubi Qafqazda deyil, həm də Xəzər hövzəsində, Orta Asiya istiqamətində və bütövlükdə Avrasiya məkanında özünü aparıcı aktor kimi təqdim edir. Azərbaycanın xarici siyasət fəlsəfəsində bu mərhələ "müstəqilliyin gücləndirilməsi və çoxşaxəli əməkdaşlıq" anlayışı ilə xarakterizə olunur. Türk Dövlətləri Təşkilatının son illərdəki dinamizmi, Bakı və Ankaranın təşəbbüsləri nəticəsində regional əməkdaşlığı strateji səviyyəyə qaldırdı. Bu, eyni zamanda Orta Asiya ölkələri üçün də yeni fürsətlər pəncərəsi açdı. Bakı paralel olaraq Şərq istiqamətində, yəni Orta Asiya ilə iqtisadi və nəqliyyat əlaqələrini dərinləşdirməklə öz mövqeyini Avrasiyanın qərb-şərq tranzit qovşağı kimi möhkəmləndirir. Mərkəzi Asiya regionu Azərbaycanın xarici siyasətində yeni strateji hədəflər üçün təbii tərəfdaş kimi nəzərdən keçirilir. Mərkəzi Asiya ölkələrinin Bakı üçün əhəmiyyəti son illərdə daha da artıb. Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Tacikistan kimi dövlətlər öz iqtisadiyyatlarını modernləşdirmək və enerji, nəqliyyat şəbəkələrində diversifikasiya yaratmaq məqsədi daşıyırlar. Prezident İlham Əliyevin son illərdə Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri bu siyasətin konkret nəticəsidir. Türkmənistan, Tacikistan və Qazaxıstana dövlət səfərləri Azərbaycan diplomatiyasının istiqamətini və regional dinamikanın dəyişdiyini göstərir. Bu səfərlər təkcə protokol xarakteri daşımır, onlar iqtisadi forumlar, enerji razılaşmaları, nəqliyyat layihələri və təhlükəsizlik sahəsində konkret əməkdaşlıq mexanizmləri ilə müşayiət olunur. Qazaxıstanla Xəzər üzərindən neft ixracı, Türkmənistanla "Dostluq" yatağı layihəsi, Özbəkistanla sənaye və kənd təsərrüfatı əməkdaşlığı kimi addımlar artıq real iqtisadi nəticələr verməyə başlayıb. Bu prosesin siyasi rəmzi isə 5+1 formulunun 6 formatına çevrilməsi oldu. Əvvəllər beş Mərkəzi Asiya dövləti ilə bir tərəfdaş kimi qəbul edilən Azərbaycan indi faktiki olaraq regionun ayrılmaz hissəsinə çevrilir. Bütün bu proseslər fonunda Azərbaycanın Orta Asiyada artan rolu təkcə iqtisadi üstünlüklərlə izah edilə bilməz. Bu, həm də siyasi etimadın nəticəsidir. Mərkəzi Asiya dövlətləri Azərbaycanın müstəqil siyasət yürütmək bacarığını, balanslı diplomatiyasını və beynəlxalq təşkilatlarda fəal mövqeyini yüksək qiymətləndirir. Bakı nə Moskvanın kölgəsində qalır, nə də Qərbin təsirinə tam tabe olur. Bu müstəqil kurs Orta Asiya ölkələri üçün də nümunədir.

Azərbaycanın regionda artan nüfuzu eyni zamanda yeni məsuliyyətlər də yaradır. Bakı indi təkcə öz milli maraqlarını deyil, həm də ümumtürk məkanının sabitliyi və təhlükəsizliyini qorumağa yönəlmiş siyasət yürütməlidir. Enerji, nəqliyyat və təhlükəsizlik sahələrində koordinasiya dərinləşdikcə, regiondaxili qarşılıqlı asılılıq artacaq. Bu isə Avrasiya məkanında yeni güc balansı formalaşdıracaq.

Beləliklə, Azərbaycanın Orta Asiyaya "yürüşü" təsadüfi və ya situativ deyil, uzunmüddətli strateji xəttin məntiqi nəticəsidir. Bu xətt həm tarixi köklərə, həm də müasir reallıqlara söykənir. İkinci Qarabağ müharibəsindən sonra formalaşan yeni reallıq Bakıya yalnız regional deyil, qlobal miqyasda da daha geniş manevr imkanları açıb. 5+1-dən 6-ya keçid əslində yeni türk əsrinin başlanğıcını simvolizə edir. Azərbaycanın diplomatik çevikliyi, iqtisadi gücü və mədəni nüfuzu bu prosesi idarə edən əsas amillərdəndir. Bakı indi təkcə körpü deyil, istiqamət müəyyən edən mərkəz rolundadır - və bu, Avrasiya siyasətinin gələcək illərini formalaşdıracaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 193 (8803) 24 oktyabr 2025



# Ayının qanacağı

Zamin HACI
zaminhaci@gmail.com

**İdman sahəsində aparılan işlərin respublikamıza böyük xeyir verdiyini dəfələrlə görmüşük. Məsələn, paralimpiyaçılarımız arasında gözü açılan, yeriməyi öyrənən əlillərə rast gəlinmişdir. Elə bunlardan biri Gürcüstanda cüdo yarışına, Avropa çempionatına qatılmaq istəyən idmançımız olmuşdu, keçən ay onu Tiflisdə yoxladılar, gördülər sapsağlam adamdır. Qalmaqal qopdu, deyildi ki, guya biz əlil yarışlarına sağlam adam göndəririk, idmançılara dopinq vururuq və sairə. Halbuki adam əvvəl əlil olub, uğurlu siyasət sayəsində yeriməyi öyrənibsə, burada neqativ nə var? Bizdə belə işlər tarixən mövcud olubdur. Məsələn, Şəkidə Saqqız piri var idi, ora gedən lalın dili açılırdı, korlar görürdü, şillər durub qaçırdı.**

Dopinqə gələndə, buna da bizim ehtiyacımız yoxdur. Biz heç dabaq dananın ətini yeyəndə yoluxmuruq, əlavə gücləndirməyə nə ehtiyacımız? Bunu özümdən yazmıram, dabaq idarəmizin müdiri Bayandur xan təzəlikcə narahat xarici qara qüvvələrə izahat verdi (biz bilirik), dedi azərbaycanlıların dabağa yoluxma ehtimalı sıfıra yaxındır.

Sözgəlişi, 2-ci dünya savaşı vaxtı da bir sumqayıtlını faşistlər qaz kamerasında boğmaq istəmişdilər, görmüşdülər uzanıb "oxqay, oxqay" deyir, Siklon B qazını ciyərlərinə çəkir.

Bu arada, Ermənistanda korona xəstəliyinin olmadığını öyrəndik. Əks halda, hökumətimiz QHT nümayəndələrini uçağa doldurub İrəvana göndərməzdi. Axı onlar gəlib bizi yoluxdurardı! Ah, vax... Deməli, ilkin olaraq quru sərhədlərimizi Ermənistana aça bilərik. İndi söz əlaqədar Operativ Qərargahındır.

Qayıdaq mövzuya. İdman sahəsinin harasını qaldırsan uğur çıxır. Dünən AsanTV vasitəsilə yayılan bir süjeti izlədim. Orada niderlandlıya ərə getmiş azərbaycanlıdan bəhs olunurdu (yeri gəlmişkən, 2020-ci ildən rəsmi qərar var, artıq biz Niderlanda Hollandiya deyə bilmərik). Onların tanışlıq səbəbi isə... futbol olub. Keçən il Niderlandın "Ayaks" klubu Bakıya, "Qarabağ"la oynamağa gələndə hava limanında üz-üzə gəliblər, aşiq olub evləniblər. Çox romantik əhvalatdır, inşallah, axırda Xoşqədəm xanımın verilişinə çıxmasınlar, ilahi, amin.

Sözü ona gətirirəm ki, futbol sayəsində xalqımız xoşbəxt olur, ailə qururdsa, bu, AFFA-nın düzgün yolda olmasına dəlalət etmirmi? Edir. Hər dəfə bir nəfər bu minvalla koronavirus epidemiyasından, pandemiyadan canını qurtarıb xaricə axın etsə, baxarsan quru sərhədini açmağa heç ehtiyac qalmamışdır. Şair demişkən, toy olsun, bayram olsun, həyat firavan olsun...

Firavanlıq heyvanlar aləmimizə də müsbət təsirini göstərir. Bu yaxında hansısa rayonda ayı heyvan otaran vətəndaşa hücum çəkmişdi. İtlər ayını qovmuşdular. Vətəndaş yüngülvari xəsarətlə qurtularaq jurnalistlərə intervü verirdi. Allah bilir, bəlkə də bu, onun həyatda yeganə intervüsü olaraq qalacaqdır. Yənі bəzən efirlərə çıxmaq üçün vətəndaşlara "həcilər və rəislər" sponsorluq edirsə, bəzən də ayılar işə qarışır. Lakin indi diskussiya mövzumuz bu deyil. Heç ayının qış yuxusuna getməkdə çətinlik çəkməsi, lazım olan qədər piy toplaya bilməməsində Ramiz Mehdiyevin çirkin fəaliyyətini də qeyd etmək fikrim yoxdur. Məni ayının qanacağı düşündürdü. İzah edim.

Bir cavan uşağın başqasını bıçaqlayıb öldürməsi videosuna baxmışdım. Əhvalatın qısa süjeti belə idi: ustalar yeyib-içib, sərxoş vəziyyətdə, söyüş söyərək küçədə gedirmişlər. Bu yeniyetmə ilə ağızlaşıblar, nəticədə ölüm olub. Yeniyetmənin ciblərində 2 bıçaq var imiş. Amma onun vəkilləri iddia edirdilər ki, gənc çox mehriban adamdır, qəsdən insan öldürməklə də arası yoxdur. (Mənim versiyama görə, iki bıçağı türkçü olduğu üçün gəzdirirmiş, çünki qıpçaq qəbilələrinin tamğasının iki bıçaq şəklində olduğu, "qıpçaq" sözünün məhz belə, "iki bıçaq" ifadəsindən yarandığı ehtimalı vardır).

Əlbəttə, deyə bilərsiniz ki, ölüm olub, bir yeniyetmənin də həyatının bundan sonrakı hissəsi qaralıb, heç sinizmin, qara yumorun yeridirmi? Deyin da bə. Açığı, artıq bu cür hadisələrə ciddi və kədərlə yanaşa bilmirəm. Ağzına və əlinə yiyə dura bilməyənlərə niyə acımalıyam?

Üstəlik, yuxarıda yazdım, ayı belə itlər hürəndə qaçıb, amma biz insanlar hay-küyə fikir vermədən insan öldürməyə davam edirik. Ayılar insanlardan mərifətlidir. Buna and içə bilərəm.

***P.S.** Dünən bir "ağıllı" da yazmışdı ki, qətllər artıb, buna görə də... ölüm cəzasını bərpa etməliyik. Etiraf edim, buna da xeyli güldüm. Üzrlü sayın.*




# İrəvanla Rusiya arasında gərginlik yeni mərhələdə

## Kreml Paşinyanla haqq-hesab çürütmək üçün fürsət axtarır; Ermənistanda hakimiyyət dəyişikliyi 2026-cı ilin parlament seçkilərini gözləməyə də bilər

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Almaniyanın "Deutsche Welle" kanalına müsahibəsində Rusiya mediasında, deputatlar və siyasətçilər arasında Ermənistana, onun hökumətinə, demokratik dəyərlərinə və suveren qərarlarına qarşı yönələn sərt tənqidləri kəskin şəkildə pisləyib.**

"Yeni Müsavat" bildirir ki, nazirin sözlərinə görə, bu cür addımlar İrəvanla Moskva arasında mövcud olan gərginliyi daha da artırır: "Əlbəttə, bu cür yanaşmalar anlaşılmazlığı, hətta münasibətlərdə parçalanmanı və fikirayrılıqlarını dərinləşdirir. Biz bu məsələni dəfələrlə rusiyalı həmkarlarımızın diqqətinə çatdırmışıq - xüsusilə də Ermənistan rəhbərliyinə və dövlət siyasətinə qarşı yönələn media və təbliğat hücumları ilə bağlı".

Maraqlı məqam odur ki, Ermənistanda keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca, bu ölkə ilə Rusiyanın ticarət dövriyyəsi kəskin azalır. Eyni zamanda Rusiya mediasında Paşinyan hakimiyyətinə qarşı tənqidlərin dozası getdikcə daha da artır. Paşinyan isə Rusiyaya bağlı müxalifəti neytrallaşdırır və son zamanlar bununla bağlı qətiyyətli addımlar atır. Rusiyameylli siyasətçi, Gümrü şəhərinin meri Vardan Qukasyanın həbsi də buna sübutdur. Bütün bunları Moskva qıcıqla qarşılayır. Ritorikanın sərtləşməsi həm də bununla bağlıdır. Rusiyada sanki qarşıdan gələn seçkilərə ölüm-qalım məsələsi kimi baxırlar. Moskva hesab edir ki, Paşinyan bu dəfə də qalib gəlsə, Ermənistanın Rusiyadan uzaqlaşması, Qərbə inteqrasiya daha da sürətlənə bilər. Bütün bu baş verənlər Ermənistanla Rusiya arasında iqtisadi əlaqələrə də təsirsiz ötüşmür. Moskva istəyir ki, zəif iqtisadi əlaqələr üzündən Ermənistanda sosial narazılıq artsın. Nəticədə seçkilərdə bu amil rusiyapərəst siyasi qüvvələrin xeyrinə işləsin.

Yəni faktdır ki, Rusiya bütün gizli və açıq əlaqələrə rəğmən, Paşinyanla haqq-hesab çürütmək üçün fürsət gəzir.

Bəs analitiklərimiz necə düşünür, proseslər haraya qədər cərəyan edəcək, Kreml Ermənistanla bağlı hədəflərinə çata biləcəkmi?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında bunları söylədi:** "Proseslərin gedişi göstərir ki, Ermənistanda Rusiyaya bağlı çevrələrin nə seçkiyə qədər Paşinyanı devirmək planları, nə də seçkidə qələbə qazanmaları mümkündür. Əksinə, görünən budur ki, Paşinyan onları devirməyə başlayıb. İki arxiyepiskop və bir yepiskopun ardından Gümrü merinin də tutulması bunun təsdiqidir". S.Alıyev xatırlatdı ki, Paşinyan özünün də seçki kampaniyasına qatılmasına, bütün inzibati resurslarını işə salmasına baxmayaraq, Qukasyan təqribən 6 ay öncə keçirilən səsvermədə hakim partiyanın təmsilçisi üzərində qələbə çalmışdı: "Daha dəqiqi, digər rusiyapərəstlərin dəstəyi ilə mer postunu o ələ keçirdi. Qukasyanı tutdurmaqla Paşinyan göstərir ki, bu, bir təsadüf idi və o, Gümrü ilə Parakarda olduğu kimi, əleyhdarlarının seçiciləri pulla ələ alıb, hakimiyyətə gəlmələrinə imkan verməyəcək. Yeri gəlmişkən, həmən Parakarın da meri bu yaxınlarda öldürüldü. Düzdür, qətlin məişət zəminində baş verdiyi bildirilir. Ancaq fakt budur ki, müxalifətin yerli seçkinin udan hər iki təmsilçisi, ya elə, ya belə zərərsizləşdirilib".

**Milli Məclis üzvü bir məqamı xüsusi qeyd etdi ki, Azərbaycan Ermənistanda hakimiyyətə iddialıları onların hansı dövlətə bağlı olub-olmalarına görə yox, regionda sülhə yanaşmalarına görə qiymətləndirir:** "Məncə, Bakı öz seçimini edib. Cənab İlham Əliyevin Azərbaycan üzərindən Ermənistana yük daşınması barədə qadağanı götürməsi də bunun təsdiqidir. Bu, bir tərəfdən özünün də vurğuladığı kimi, regionda sülhün yarandığının əməldə təsdiqidirsə, digər tərəfdən sözügedən ölkənin beynəlxalq subyektliyinin təmininə verilmiş töhfədir. Bu haqda açıqlamanın məhz Qazaxıstanda verilməsi və qadağanın götürülməsinin Ermənistan üçün nəzərdə tutulan qazax taxılı ilə bağlı olması oradakı toplumu dərindən düşündürməlidir. Belə də onlar görəcəklər ki, Türk dünyasının güclənməsi ölkələri üçün bəzi "havadar"larının aşıladıqları kimi, təhlükə deyil, əksinə, forpostluqdan qurtarıb milli maraqlardan çıxış etmələri, beynəlxalq subyektə çevrilmələri üçün böyük fürsətdir".

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru, hüquqşünas Sahib Məmmədov isə vurğuladı ki, Ermənistanla Rusiya arasında münasibətlərin normallaşması ancaq görüntüdür:** ""Taşir" şirkətinin rəhbəri, Rusiya və Ermənistan biznesmeni milyarder Samvel Karapetyanın həbsi, Paşinyan və Ermənistan katolik kilsəsi arasında artmada olan qarşıdurma Rusiyanın üreyincə deyil və onun maraqlarına uyğun gəlmir. Bu baxımdan, Rusiyanın ali rəhbərliyi nisbi tolerantlıq göstərsə də, deputatlar, politoloqlar, media nümayəndələri səviyyəsində Ermənistan hakimiyyətinə qarşı tənqidi çıxışlar davam edir. Ermənistanda baş verən bütün aksiyaları Rusiya televiziyaları şərhlər verməklə nümayiş etdirir. Həmçinin Ermənistanda olan müxalifətin mövqelərinin zəifləməsi prosesi gedir. Onların aksiyaları getdikcə daha da zəifləyir və elektorat itkisi davam edir". S.Məmmədov qeyd etdi ki, Vaşinqton prosesi, Azərbaycanın blokadanı götürməsi kimii jestlər Ermənistan baş nazirinin nüfuzunu artırır, müxalif qüvvələrin arqumentlərini zəiflədir: "Qarşıda isə Paşinyan hökuməti üçün taleyüklü seçkilər var. Bu seçkilər Ermənistandakı əks qüvvələr üçün son şans ola bilər. Ermənistanın isə özünəməxsus "şaxələnmiş" siyasəti tədricən iflasa uğrayır və strateji seçim etmək məqamı yetişir.

Bu arada, qeyd etdiyim kimi, Azərbaycan tərəfindən tranzit qadağasının götürülməsi və ilk olaraq Ermənistanın ərzaq təhlükəsizliyinə yönələn taxıl daşınmasına başlanılması Ermənistana edilən növbəti jestdir və indi növbə Ermənistanındır. Əgər vaxtında Zəngəzur dəhlizi açılsaydı, Ermənistan 43 kilometrə qədər olan hissədə yolları və əvvəldən Naxçıvandan keçməklə İrəvana gedən dəmir yolunu özünə aid hissədə bərpa etsəydi, indi iki ölkəyə deyil, bir ölkəyə tranzit xərcləri ödəyəcəkdi. Bizim tərəfdən Ermənistana yük daşınması üzərində qadağanın götürülməsinin cavabı Zəngəzur dəhlizinin, onların istədiyi kimi də desək, Tramp marşrutunun bərpası istiqamətində konkret işlərə başlamaq olmalıdır. Əlbəttə, Ermənistan da bunu istəyirsə, artıq sabahdan işlərə start verməlidir". **O ki qaldı Ermənistan-Rusiya iqtisadi münasibətlərinə və ticarət dövriyyəsindəki nisbi azalmaya, STM-in icraçı direktorunun fikrincə, iqtisadi münasibətlər davam edəcək:** "Çünki bunda həm Rusiya, həm Ermənistan maraqlıdır, xüsusən ikili təyinatlı məhsulları, o cümlədən sanksiya altında olan malların bir hissəsini Rusiya Ermənistandan alır. Vahid gömrük məkanı isə Ermənistana üçüncü ölkələrdən aldığı məhsulları Rusiyaya əlverişli şərtlərlə reeksport etməyə imkan verir".

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 193 (8803) 24 oktyabr 2025

# MDB ölkələrinə qəfil həmlə - Putinin fərmanı

## Moskvanın son addımları strateji itkiləri bərpa isteriyasından irəli gəlir; Kreml lideri "Yeni Rusiya" üçün tələsir...

**Rusiya Prezidenti Vladimir Putin Nikolay Udoviçenkonu Rusiya Federasiyasının MDB-nin qonşu dövlətləri ilə sərhədinin delimitasiyası və demarkasiyası üzrə xüsusi nümayəndəsi təyin edib. Putin həmçinin Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Udoviçenkonu Xəzər dənizi üzrə çoxtərəfli danışıqlarda Rusiya nümayəndə heyətinin rəhbəri təyin edib. Xüsusi nümayəndə həmçinin separatçı Abxaziya və Cənubi Osetiya ilə dövlət sərhədinin delimitasiyası və demarkasiyasına cavabdeh olacaq. Fərman oktyabrın 22-dən qüvvəyə minir.**

Rusiya MDB üzvü olan bütün ölkələrlə, yəni Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan və həmçinin MDB-dən çıxmış Ukrayna, Gürcüstanla sərhədə malikdir. Rusiya bəzi ölkələrlə sərhədinə görə xüsusi çətinliklər yaşayır.

"Yeni Müsavat" xatırladır ki, Rusiyanın Azərbaycanla 300, Ermənistanla 150, Belarusla 1. 200, Qazaxıstanla 7.598, Qırğızıstanla 140, Moldova ilə 350, Tacikistanla 300, Türkmənistanla 150, Özbəkistanla 150, Ukrayna ilə 2.200 və Gürcüstanla 900 km sərhədi var.

Narahatedici faktdır ki, Rusiya postsovet məkanı ölkələrinə qarşı zaman-zaman ərazi iddiaları irəli sürür. Rusiya Ukraynanın Krım yarımadasını ilhaq edib, 3 ilə yaxındır ki, Donbas bölgəsini də öz ərazisinə qatmaq üçün müharibə aparır. Rusiya Qazaxıstana qarşı ərazi iddialarını da gündəmdə saxlayır. Bu siyahıda Moldova, Gürcüstan və Ermənistan da var. O da sirr deyil ki, Rusiya keçmiş Rusiya imperiyasının ərazisinə tam nəzarəti nə vaxtsa yenidən bərpa edəcəyinə ümidini qətiyyən itirməyib. Ona görə bu təyinat diqqət çəkir.

Ümumiyyətlə, Rusiyanın Ukraynaya qarşı başlatdığı işğalçı müharibədən sonra bəzi ölkələrdən Rusiyanın yenidən SSRİ-ni qurmağa çalışdığı barədə təxminlər irəli sürülüb. Xüsusən, müharibə ərəfəsində və ilk aylarda bu ehtimalların kifayət qədər yüksək olduğu düşünülürdü. Hazırda bu iddiaya inananların sayı azalsa da, Kremlin istədiyi miqyasda "uğur" əldə edə bilməməsinin onun iştahına təsir etmədiyi və ambisiyalarını qoruyub saxladığını düşünənlər də var. Putinin əvvəlcə keçmiş SSRİ-nin, daha sonra isə çar Rusiyasının sərhədlərinə qayıtmaq istəyi istisna deyil. Rusiya prezidenti bu mövzuda dəfələrlə siqnal verib. O, SSRİ-nin dağılmasını geosiyasi fəlakət də adlandırmışdı. Rusiya mətbuatında keçmiş SSRİ dövlətinin bərpası siyasətinin həyata keçirilməsi və Ukraynanın Belarus kimi ittifaqa qoşulmasını təmin etmək haqda informasiyalar tirajlanırdı.

Putinin yanında olan köməkçiləri hesab edirdilər ki, Ukraynanın işğalından sonra Orta Asiya, Baltikyanı və Cənubi Qafqaz regionlarındakı ölkələr də bir-birinin ardınca Rusiyanın tərkibinə qatılacaq. Putin və komandası həddindən artıq şovinist mahiyyət daşıyan bu niyyəti həyata keçirmək üçün çalışırdılar.

**Professor Elxan Mirzəyevin xatırlatmasına görə, bir neçə gün əvvəl Kreml ideoloqu Aleksandr Duqin Rusiyanın indiki liderini yenidən imperator elan edib və ölkəsinin imperiya olduğunu dilə gətirib:** "Bunu niyə deyirəm, çünki Rusiyanın imperiya zehniyyəti dəyişməyib və MDB məkanına ağalıq iddiasından geri çəkilməyib. Yəni Putinin son qərarının siyasi izahı budur ki, Rusiyanın keçmiş SSRİ ərazisinə münasibəti dəyişməyib. Moskva hələ də keçmiş sovet ölkələrini ondan kiçik görür. Paralel olaraq da Rusiyanın təşvişini müşahidə etmək olar. Bir yandan MDB iclasları keçirilir, bəzi xəbərdarlıqlar olunur, bir tərəfdən MDB məkanı ilə bağlı yeni təyinatlar görə bilirik. Rusiya regionu tamamilə buxovlamaq niyyətindədir, lakin total nəzarət, yəni keçmiş SSRİ modelinin tətbiqi nonsensdir. Çünki MDB ölkələrində ictimai-siyasi vəziyyət fərqlidir. Yəni Ermənistan Rusiyanın təsir dairəsi olsa da, oradakı hakimiyyət Moskvanın deyil. Azərbaycan Rusiyanın orbitindən çıxıb. Özbəkistan və Qazaxıstan addımlarını sürətləndirib. Ukrayna, Gürcüstan və Moldova göz qabağındadır".

E.Mirzəyev hesab edir ki, Rusiya postsovet məkanında dominantlığını saxlamaq istəyir, amma bu coğrafiyada təkhakimiyyətlilik əldən gedib: "Putin çıxışlarında çoxqütblü dünya uğrunda mübarizədən danışır. Yeni dünya nizamında isə Rusiyanın yerini müəyyənləşdirmək istəyir. Bunun üçün təsir dairəsində keçmiş Sovet İttifaqı ərazilərini görür. Amma Qərbin artan təsirləri onun regionda təkbaşına hökmranlığına son qoyub. Bu gün bölgədə Türkiyə reallığı mövcuddur. Avropa Birliyi və ABŞ də siyasi-iqtisadi təsirini gücləndirir. Əgər Ukraynada blitzkriq baş tutsaydı, Rusiya indi MDB məkanında təkbaşına ağalıq edəcəkdi. Ona görə də son çırpıntılar, verilən mesajlar və qərarlar məhz strateji itkiləri bərpa etmək isteriyasından irəli gəlir. Fikrimcə, Rusiya bu yanaşmanı və doktrinanı dəyişmədikcə, həm keçmiş sovet respublikaları üçün təhlükə qalır, həm də özünü yeniləyə bilmir". **Müsahibimizin sözlərinə görə, dünya dəyişib və Donbas, Abxaziya, Cənubi Osetiya, Dendtryanı əraziləri ilə Yeni Rusiya imperiyası qurmaq mümkün olmayacaq:** "Putinin son fərmanı məhz separatçı və işğal olunmuş əraziləri Rusiyaya birləşdirmək niyyətindən xəbər verir. Artıq delimitasiya təşəbbüsləri Ukrayna və Gürcüstanın işğal olunmuş torpaqları hesabına genişlənmək ambisiyasının göstəricisidir. Putin "Yeni Rusiya" üçün tələsir".



**Müsahibimiz əlavə edib ki, Rusiyanın bütün hərəkətləri avrasiyaçılıq ideyalarına söykənir və Qərbin genişlənmə planına qarşı immunitet formalaşdırmaq cəhdləridir:** "Bunun üçün müqavimət oxu yaratmağa can atır. Çin və Şimali Koreya, eləcə də İran, habelə Mərkəzi Asiya və Cənubi Qafqazı bir blokda görmək istəyir. Lakin Qərb genişlənmə proqramını davam etdirir. Rusiya indi zəifləməkdədir. O demək deyil ki, geriyə dönüş etmək istəməyəcək. Əgər Duqin açıq şəkildə imperiya ehtiraslarını dilə gətirirsə, deməli, Rusiya region üçün təhdid olaraq qalmaqdadır. Azərbaycan isə bu regionda hamıdan fərqlənir. Çünki Türkiyə ilə Şuşa Bəyannaməsi imzalanıb və təhdidlərə qarşı birgə hərəkət edirik".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## Rusiyadakı miqrantlar hədəfdə

**"Beynəlxalq terror təşkilatları MDB ölkələrində əsasən ən həssas təbəqə hesab olunan əmək miqrantlarını cəlb edirlər".**

Bu barədə Tacikistan Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Saymumin Yatimov deyib.

"Bu gün terror və ekstremist təşkilatlar, eləcə də transmilli və kibercinayətkarlıqla əlaqəli gizli hücrələr regionda sabitliyi pozmaq məqsədilə fəallaşıblar. Son illər beynəlxalq terror təşkilatları region ölkələrinin ərazilərində gizli hücrələr formalaşdırırlar. İdeoloji cəlbetmə əsasən əhalinin ən həssas təbəqəsi olan əmək miqrantları arasından aparılır. Bunun üçün isə regional mentalitetdən istifadə edilərək radikal ideologiyanın yayılması və İslamın siyasiləşdirilməsi həyata keçirilir", - Yatimov qeyd edib.

## Putini ancaq belə dayandırmaq olar

**"ABŞ Prezidenti Donald Tramp Rusiya ərazisinin dərinliklərində hədəfləri vurmaq üçün Ukraynaya uzaqmənzilli "Tomaqavk" raketlərindən istifadə etməyə icazə verməlidir". Bunu Finlandiyanın baş naziri Petteri Orpo bildirib. Orpo Rusiyanın Avropanın təhlükəsizliyinə daimi təhdidi barədə xəbərdarlıq edib və Trampı Ukraynanı özünü müdafiə etmək üçün lazım olan silahlarla təmin etməyə və Vladimir Putini danışıqlar masasına oturmağa inandırmağa çağırıb. "Putin yalnız gücə inanır. Əgər müharibəni dayandırmaq istəyiriksə, Rusiyadan güclü olmasa da, eyni səviyyədə olmalıyıq", - Finlandiya baş naziri deyib.**

Orpo ümid etdiyini bildirib ki, Tramp hələ də Ukraynanı lazımi raketlərlə təmin edəcək: "Hələ də ümid edirəm ki, onlar Rusiyaya əks zərbə və özünümüdafiə üçün Ukraynaya lazımi imkanları yaradacaqlar. Bəli, bizə məlumdur ki, bu, Zelenski ilə ABŞ arasında olan məsələdir, ümid edirəm ki, onlar bir həll yolu tapacaqlar".

# Ölkədə iş saatını azaltmaq təklifi

## Ekspertlərin fikrincə, belə bir modelin mərhələli şəkildə tətbiqi həm nəqliyyat yüklənməsini azaldar, həm də...

**Azərbaycanda iş saatlarının azaldılması və ya çevik iş qrafikinin tətbiqi məsələsi yenidən gündəmə gəlib. Bu dəfə məsələ təkcə sosial rifah və əmək hüquqları kontekstində deyil, həm də Bakıdakı tıxac probleminin azaldılması ilə əlaqələndirilir.**

Qeyd edək ki, Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə dövlət orqanları, təhsil və tibb müəssisələrinin iş rejiminin dəyişdirilməsi artıq gündəmdədir. Bu dəyişikliklər Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində həyata keçiriləcək.

Proqrama əsasən, 2025-2026-cı illərdə dövlət qurumları, təhsil və tibb müəssisələri, eləcə də digər hüquqi və fiziki şəxslərin iş rejimi dəyişkən iş qrafik əsasında təşkil ediləcək. Müvafiq siyahılar Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və TƏBİB tərəfindən təsdiqlənəcək.

**Deputat Fazil Mustafa bildirir ki, iş saatlarının tənzimlənməsi həm sosial, həm də iqtisadi baxımdan önəmli addımdır:** “Ölkə üzrə iş saatlarının dəyişdirilməsi ilə bağlı müzakirələr dəfələrlə aparılıb. Bu, ilk növbədə tıxac probleminin həlli baxımından son dərəcə vacib məsələdir. Təəssüf ki, hələ də tıxac problemi cəmiyyətdə lazımi səviyyədə müzakirə olunmur və bir qədər diqqətdən kənarda qalır”.




Deputat hesab edir ki, iş saatlarının azaldılması və ya mərhələli başlanğıc vaxtlarının tətbiqi ilə insanların hərəkət axınını tənzimləmək mümkündür:

“İş saatları elə şəkildə müəyyən edilməlidir ki, insanların hərəkəti üst-üstə düşməsin, eyni vaxtda baş verməsin. Həmçinin müəyyən sahələrdə iş saatlarının azaldılması və ya çevik iş qrafikinin tətbiqi ilə bir qrup insanın daha rahat şəkildə işə gedib-gəlməsi təmin oluna bilər. Bu da, öz növbəsində, tıxacların yaranmasının qarşısını alar”.

Qeyd edək ki, bu istiqamətdə beynəlxalq təcrübə də diqqətəlayiqdir. Məsələn, Türkiyədə hazırda Əmək Qanununa dəyişikliklər müzakirə olunur. Yeni layihələrdə maaş sistemindən iş saatlarına, ödənişli məzuniyyətlərdən çevik iş modelinə qədər geniş spektrdə yeniliklər nəzərdə tutulur. Bir çox Avropa ölkələrində olduğu kimi, orada da həftəlik iş saatının 40-dan 35 saata endirilməsi və 4 günlük iş həftəsi konsepsiyası sınaqdan keçirilir.

Ekspertlərin fikrincə, belə bir modelin Azərbaycanda da mərhələli şəkildə tətbiqi həm nəqliyyat yüklənməsini azalda, həm də işçi rifahını və motivasiyasını artır bilər.

**İqtisadçı Xalid Kərimli bildirir ki, millət vəkilinin dediyi məsələ mümkünsüzdür:** “Azərbaycanda iş saatının azaldılmasından söhbət belə gedə bilməz. Çünki ölkəmizdə insanların sosial vəziyyəti o səviyyədə deyil ki, bu, baş tutsun. İnsanların problemi layiqli məşğulluq, stabil gəlirlə özlərinin təmin edilməsidir. Ölkəmizin iqtisadiyyatı neft sektorundan asılıdır, neft hasilatı isə azalır. İş saatının azaldılmasından çox, mövcud 40 saatlıq iş rejiminə riayət olunub-olunmaması məsələsini gündəmdə saxlasınlar. Özəl sektorda bir çox yerlərdə iş 40 saatdan çox olur. 6-cı günlər məcburi işə çıxarılırlar. İnsanlar 40 saat işləyəndə sevinirlər ki, onu keçmədi. Bu baxımdan iş saatının azaldılması Azərbaycanın gündəmində deyil. Çünki bunun sosial-iqtisadi əsası var. Həm də iş saatının azaldılması tıxac problemini həll etməyəcək. Lakin iş saatlarının fərqli vaxtlarda müəyyənləşdirilməsi tıxac probleminin həllinə kömək edə bilər. Bir məsələ də var ki, bunu özəl sektordan tələb etmək olmayacaq. Bu tələb dövlət müəssisələrinə qoyula bilər və orada çalışanlarla iş saatını fərqli sistemdə etmək mümkündür. Özəl sektora isə yalnız tövsiyə etmək olar”.

**Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov “Yeni Müsavat”a açıqlamasında bildirib ki, iş saatlarının azaldılması və ya fərqli iş qrafikləri tıxacların azaldılmasına əsaslı kömək etməyəcək:** "İş qrafikinin dəyişdirilməsi çətin məsələdir. Azərbaycanda 4-5 min işçisi olan böyük zavodlar elə çox deyil ki, bu model əhəmiyyətli dəyişiklik etsin. Neftayırma zavodları növbəli işləyirlər, onlarda onsuz da qrafik başqadır. 50-100 nəfər işçisi olan 10 minlərlə iş yerində qrafiki dəyişib, ona nəzarət etmək mümkün deyil. Digər tərəfdən, bu məsələyə kompleks yanaşılmalıdır. Bakıda əsas tıxac məktəblərin qarşısında baş verir. Səhər saatlarında məktəblərin qarşısında nizam-intizam yoxdur. İstənilən vəzifəli şəxs maşını yolun ortasında saxlayır, ona heç kim heç nə demir. Hərə öz avtomobili ilə uşağını dərsə gətirir. Deyirlər ki, məktəbli avtobusları olsun. O ərazilərdə mümkün olur ki, eyni ərazidə yaşayanlar eyni məktəbdə oxusunlar. Valideynlər övladlarını Hövsandan Bakının mərkəzinə və ya Masazırdan Əhmədliyə oxumağa gətirirlər. Onda gərək hər şagirdə bir avtobus verilsin? Bu da mümkün olmayan məsələdir.

Fazil Mustafa təklif verirsə, onun iqtisadi və maliyyə tərəflərini əsaslandırmalıdır. Dövlət orqanlarında iş saatlarını qısaltmaq mümkündür? Bu, ölçülüb -biçilməyən təkliflərdir. Camaatı 12-13 saat işlədirlər, bunu dilə gətirsinlər".

❑ Şahanə RƏHİMLİ,
“Yeni Müsavat”

# Naxçıvanda turizm böhranı

## Normal PR və yol quruculuğu olsa, Əshabi-Kəhf mağarasına ildə on minlərlə turist cəlb etmək olar




**Naxçıvana gələn turistlərlə bağlı rəsmi statistika açıqlanıb. Bu ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasına 58 min 348 nəfər xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs səfər edib - bu, ötən ilin eyni dövrünə nisbətən 24,3% azdır.**

Hesabat dövründə Naxçıvanda 27 355 nəfər xarici turist özünə və yaxud ailə üzvlərinə məxsus mənzillərdə qalıb. Bu, 1 il əvvələ nisbətən 14,05% azdır.

**İqtisadçı Natiq Cəfərli** sosial media hesabında sual edib ki, Naxçıvanda xarici turistlərin özünə aid mənzilləri və ya ailə üzvlərinin mənzilləri varsa, bunun harası turist oldu və ya Naxçıvanda turist kimə deyilir: “Lap maraqlı detal: qohumların və dostların evində qalanların sayı 26 831 nəfər olub ki, bu da illik müqayisədə 30,6% azdır. Ən az turist mehmanxana və mehmanxana tipli obyektlərdə qalıb - cəmi 1 191 nəfər. Bu, illik müqayisədə 34,6% azdır. Naxçıvana 8 ayda cəmi 1191 nəfər əsl turist, xarici vətəndaş gəlib. Bu da aya 148 nəfər, günə təxminən 5 nəfər turist düşür. Digər gələnlər isə Türkiyə, Rusiya və s. ölkə pasportu almış naxçıvanlılardır, onlara da "turist" deyirlər. Ən maraqlı məsələ budur ki, Naxçıvanın quru sərhədləri açıqdır, amma turist sayında kəskin azalma var. Normal PR və yol quruculuğu olsa, bir tək Əshabi-Kəhf mağarasına ildə on minlərlə turist cəlb etmək olar".

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycanda daxili turizm məqsədilə çəkilən xərclərin ümumi həcmi 2 milyard 526,8 milyon manat olub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 13.6% çoxdur. Xərclər arasında ən böyük pay alış-veriş və hədiyyələrin alınmasına düşüb - 647,2 milyon manat. Daha sonra qidalanma (616,6 milyon manat), yerləşmə xidmətləri (467,9 milyon manat) və nəqliyyat xidmətləri (373,2 milyon manat) gəlir. Bu dörd istiqamət birlikdə ümumi məbləğin təxminən 83,3%-ni formalaşdırıb. Bununla yanaşı, daxili turistlər digər xərclərə 201,1 milyon manat, idman-əyləncə xidmətlərinə 104,3 milyon manat, yanacağa 39,5 milyon manat, mədəniyyət xərclərinə isə 35,4 milyon manat yönəldiblər. Avtomobil və digər nəqliyyat vasitələrinin icarəsi 23,2 milyon manat, turizm zərflərinin alınması - 18,3 milyon manat təşkil edib.

**Turizm sahəsi üzrə ekspert Ceyhun Aşurov** mövzunu “Yeni Müsavat”a şərh edərkən bildirdi ki, Azərbaycana gələn əcnəbi turistlərin sayında 2 faiz azalma olub. Onun sözlərinə görə, turistlərin daha çox səfər etdiyi yay mövsümündə regiondakı gərginliklərlə əlaqəli olaraq səfərlərin sayında azalma daha çox idi: “Hotellərdə qonaqlama 30 faiz aşağı düşmüşdü. Bununla yanaşı, yerli əhalinin turist kimi bölgələrə səfərləri daha çox oldu. Naxçıvan Muxtar Respublikası ilə bağlı məsələdə quru sərhədlərin bağlı olması, gediş-gəlişin ancaq hava yolu ilə mümkün olması əsas maneələrdən biridir. Əvvəllər İrandan, Türkiyədən gələn əcnəbilər Naxçıvana səfər edirdilər, ən azı bir gün qalıb digər bölgələrə səfər edə bilirdilər. Hazırda isə məhdudiyyət çoxdur. Naxçıvanda hazırda müxtəlif islahatlar aparılır. Bu yaxınlarda Naxçıvan Turizm İdarəsi yaradıldı. Bu, turizm siyasətinin koordinasiyasını həyata keçirən sayca 9-cu turizm idarəsidir. Lakin bu, kifayət deyil. Naxçıvanda turizmin inkişafı üçün müxtəlif tədbirlərin görülməsinə ehtiyac var, irimiqyaslı tədbirlərin, festivalların keçirilməsi məqsədəuyğun olar. Naxçıvanın turizm potensialını nəzərə alsaq, bu bölgəyə gəliş-gedişin artacağı gözlənilir. Həm sərhədlər açıldıqdan sonra, həm də Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalandıqdan sonra Zəngəzur dəhlizinin açılması, ticarət əlaqələrinin inkişaf etməsi ilə təkcə Naxçıvana yox, bütövlükdə Azərbaycana turist səfərlərinin sayının artması mümkün ola bilər”.

Ekspert hesab edir ki, ölkəmizdə turizm sahəsində inkişafa nail olmaq üçün turistlər üçün gediş-gəlişi rahatlaşdırmaq lazımdır: “Azərbaycanda hazırda qonaqlamanın, o cümlədən restoranlarda qidalanmanın qiymətləri qonşu ölkələrlə müqayisədə o qədər də baha deyil, kifayət qədər rəqabətqabiliyyətlidir. Hazırda əcnəbilər Azərbaycana yalnız təyyarə ilə səfər edə bilirlər. Buna görə də hava limanlarını daha cəlbedici vəziyyətə gətirməliyik. Beynəlxalq hava limanlarımızın səmərəli və effektiv çalışmasını təmin etmək lazımdır. Turizm paketlərində nəqliyyat xərcləri xüsusi paya malikdir. Nəqliyyat xərcləri daha əlverişli olarsa, turistlər üçün bu, ciddi təsiredici amilə çevrilər”.

Qeyd edək ki, **Dövlət Turizm Agentliyinin Mədəni irs və regional turizm şöbəsinin müdiri Elgün Cavadov** bugünlərdə mediaya açıqlamasında bildirib ki, gələcəkdə Şahbuz rayonunun Kükü və Ordubad rayonunun Pəzməri kəndlərində müvafiq turizm infrastrukturunun yaradılması planlaşdırılır: “Naxçıvanda turizmin bütün növlərinin inkişafı üçün geniş imkanlar var. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində turizm sektorunun inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət proqramı çərçivəsində Naxçıvanda iki turistik kəndin seçilməsi istiqamətində işlər görülüb. Müxtəlif kəndlərə baxış keçirilərək Şahbuz rayonunun Kükü və Ordubad rayonunun Pəzməri kəndləri ilkin mərhələdə turistik kənd olaraq müəyyənləşdirilib. Gələcəkdə bu kəndlərdə müvafiq turizm infrastrukturunun yaradılması planlaşdırılır".

❑ Nigar HƏSƏNLİ,
“Yeni Müsavat”

Yeni Müsavat
N 193 (8803) 24 oktyabr 2025

# “Lukoyl” Azərbaycandakı aktivlərini sata bilər

## ABŞ və Avropanın Rusiyaya qarşı yeni sanksiyaları - nələr olacaq?

**Oktyabrın 22-də Avropa İttifaqı və ABŞ Rusiyaya qarşı yeni sanksiyaları açıqladılar. Hər iki sənəd bilavasitə Rusiyanın enerji gəlirlərinin azaldılmasına yönəlib.**

Aİ-nin sayca 19-cu olan sanksiyalar paketi 500 səhifədən çox olan yeddi sənəddən ibarətdir. Sənədə əsasən Aİ Rusiyadan maye qaz - LNG idxalına qadağa qoyur. Qadağa qısamüddətli müqavilələr üçün - altı aydan sonra; uzunmüddətli müqavilələr üçün - 2027-ci ilin yanvarından qüvvəyə minir.

Bundan əlavə, Aİ-nin “Rosneft” və “Qazprom Neft”lə əməliyyatlara qoyulan qadağaları sərtləşdirilib. Tatarıstanın neft sənayesində fəaliyyət göstərən sənaye holdinqi sanksiyaya məruz qalıb.

İlk dəfə olaraq Rusiya neftini alan Çin şirkətlərinə - iki neft emalı zavoduna və bir treyderə qarşı sanksiyalar tətbiq edilib.

Aİ Rusiyanın təyin olunan qiymət tavanından yuxarı satılan Rusiya neftinin daşınmasının qarşısını almaq üçün “kölgə donanması”nı idarə edən Litasco Middle East DMCC (BƏƏ-dəki Lukoil törəmə müəssisəsi) şirkətini sanksiya siyahısına salıb. Bu donanmanın qeyri-qanuni fəaliyyətinə şərait yaradan bayraq reyestrləri və gəmi istehsalçıları bloklanıb. Rusiya nefti, silah və ya Ukrayna taxılını daşıyan daha 117 gəmiyə (cəmi 557) limanlara giriş və dəniz xidmətləri qadağan edilib. “Kölgə donanması” gəmilərinin təkrar sığortasına qadağa tətbiq edilir.

Açıqlanan sənədə görə, Aİ sanksiyalardan yayınmaq üçün kriptovalyutaların istifadəsində artım qeydə alıb. Buna imkan yaradan rublla ifadə olunan stabilcoin A7A5-in tərtibatçısı, emitent və ticarət platforması sanksiyaya məruz qalıb. Aİ daxilində bu aktivlə bütün əməliyyatlar qadağandır.

Tacikistan, Qırğızıstan, BƏƏ və Honq Konqdan olan səkkiz bank və neft treyderinə əməliyyatlar qadağan edilib.

Aİ-nin sanksiya siyahısına beş Rusiya bankı da əlavə olunub: Istina, Zemsky Bank, Absolut Bank, MTS Bank və Alfa-Bank. Belarus və Qazaxıstanın dörd bankı da Rusiya ilə alternativ ödəniş sistemlərində iştiraka görə sanksiya siyahısındadır.

Aİ Rusiyanın Mir və SBP ödəniş sistemləri ilə qarşılıqlı əlaqəni qadağan edir. Rusiyanın doqquz xüsusi iqtisadi zonasında şirkətlərin fəaliyyətinə məhdudiyyətlər sərtləşdirilib.

Rusiya hərbi-sənaye kompleksində fəaliyyət göstərən iş adamları və şirkətlərinə, həmçinin BƏƏ və Çindən ikili təyinatlı məhsul tədarükçülərinə qarşı sanksiyalar tətbiq edilib.

Siyahıda Rusiyaya göndərilmiş KXDR ordusunun general-leytenantı Ça Yonq Beom da var.

Rusiya hərbi-sənaye kompleksini dəstəkləyən 45 şirkətə, o cümlədən CNC dəzgahları, elektronika, dron və texnologiya tədarükçülərinə məhdudiyyətlər qoyulub. Bunlardan 17-si Rusiyadan kənarda yerləşir: 12-si Çində (Honq-Konq daxil olmaqla), üçü Hindistanda, ikisi Taylandda.




İxracına qadağa qoyulan malların siyahısı genişləndirilib, mikroelektronika, barıt kimyəvi maddələr, metallar, oksidlər, rezin məmulatları, borular, şinlər və tikinti materialları daxildir.

Neft-kimya sektoru üçün vacib olan bütün asiklik karbohidrogenlərin alınmasına və idxalına qadağa qoyulub. Rusiyanın ən böyük qızıl mədənçisi Polyus PJSC və mədən şirkəti Evraz Plc sanksiyalar siyahısına əlavə edilib.

Rusiya hökumətinə təqdim edilən hər hansı xidmətlər indi Aİ-nin əvvəlcədən razılığını tələb edir. Avropa şirkətlərinə Rusiyada turizm xidmətləri göstərmək qadağan olunub.

Ukraynadakı müharibədə Rusiyaya dəstək verən Belarusun beş müdafiə sənayesi müəssisəsi və Lukaşenko rejimi ilə əlaqəli qurumları sanksiyaya məruz qalıb.

Aİ tədbirləri indi Rusiyaya qarşı ticarət məhdudiyyətlərini əks etdirir. Bank işi, süni intellekt, kvant hesablamaları və məlumatların təhlili məhsulları da daxil olmaqla proqram təminatına qoyulan qadağa genişləndirilib.

Aİ ilə eyni gündə ABŞ-da Donald Tramp hakimiyyətə qayıdandan bəri ilk dəfə Rusiyaya qarşı sanksiya qərarı alınıb. Qərar Rusiyanın neft ixracının 60 faizindən çoxunu həyata keçirən enerji nəhənglərinə - "Rosneft" və "Lukoyl" şirkətlərinə aiddir. Rusiyada neft hasilatının təxminən 40 faizi "Rosneft"in payına düşür. 2024-cü ildə şirkətin karbohidrogen hasilatı 255,9 milyon ton neft ekvivalenti təşkil edib

"Lukoyl"un Rusiya istehsalındakı payı təxminən 15 faiz təşkil edir. 2024-cü ildə İraqdakı Qərbi Qurna-2 layihəsi istisna olmaqla, neft və qaz kondensatı hasilatı 80,4 milyon ton neft ekvivalenti təşkil edib.

Sanksiya siyahısına "Lukoyl"un altı törəmə şirkəti, o cümlədən öz məlumatlarına görə, qrupun karbohidrogen hasilatının təxminən 40 faizini təşkil edən LUKOIL-Qərbi Sibir daxildir. "Rosneft"in sanksiyaya məruz qalan 28 şirkəti, o cümlədən Vankor neft və qaz-kondensat yatağının işlənməsini həyata keçirən Vankorneft və bir neçə neft emalı zavodunun operatoru var.

ABŞ-nin Rusiya enerji nəhənglərini hədəf alması dünya mətbuatında geniş müzakirələrə səbəb olub. Bloomberg xəbər verir ki, ABŞ prezidenti sözün əsl mənasında son anda fikrini dəyişib. Hindistan neft emalı zavodunun rəhbərləri "Bloomberg"ə bildiriblər ki, Rusiyadan enerji məhsullarının alınması indi praktiki olaraq mümkün deyil. Onlar deyirlər ki, bu, sənayeyə böyük zərbədir - Moskva 2023-cü ildə Nyu-Dehlinin ən böyük neft mənbəyi olub.

“The New York Times” yazır ki, hətta Co Bayden Rusiyadan enerji alan Amerika müttəfiqlərinə zərər verməmək üçün “Rosneft” və “Lukoyl”a məhdudiyyətlər qoymaqdan çəkinib. Qəzetin mənbələrinə görə, sanksiyalar həqiqətən də böyükdür və Trampın Putindən məyusluğunun prinsipcə yeni səviyyəsini vurğulayır. Əvvəllər Ağ Ev rəhbəri yalnız əhəmiyyətli tədbirlər görməklə hədələyirdi, yalnız son anda fikrini dəyişdirib.

Bu arada ABŞ Maliyyə Nazirliyi CNN-ə bildirib ki, oktyabrın 23-də Vaşinqton rəsmiləri ilə Brüsselin sanksiyalar üzrə xüsusi nümayəndəsi Devid O’Sullivan arasında görüş gözlənilir.Kanalın mənbələrinə görə, digər əsas məsələ "Rosneft" və "Lukoyl"la iş aparan ölkələrdə neft emalı zavodlarına qarşı ikinci dərəcəli məhdudiyyətlərin mümkün tətbiqi olacaq.

Qeyd edək ki, ABŞ hər iki Rusiya şirkətinin Azərbaycan və Qazaxıstandakı layihələrinə istisna olaraq güzəşt tətbiq edib. Lakin bildirilir ki, "Lukoyl"un Azərbaycandakı layihələrinə münasibətdə güzəşt Böyük Britaniyanın tətbiq etdiyi güzəştin eynisidir, lakin Qazaxıstandakı layihələr üçün müddətsizdir. Xatırladaq ki, oktyabrın 15-də "Lukoyl" və "Rosneft"ə sanksiya tətbiq edən Böyük Britaniya onların Azərbaycan və Qazaxıstandakı layihələrinə 14 oktyabr 2027-ci ilədək güzəşt verib. Bu o deməkdir ki, ABŞ öz şirkətlərinin iştirak etdiyi Qazaxıstan layihələrinə daha üstün güzəşt verib.

ABŞ, Böyük Britaniya və Aİ-nın Rusiyanın enerji sektoruna qarşı sanksiyalarının Azərbaycana bir sıra təsirləri ola bilər. Bura birinci növbədə Rusiyadan neft ixracının çətinləşməsi fonunda dünya bazarında bu xammalın qiymətinin artması daxildir. ABŞ sanksiyaları elan olunan kimi qiymət 61 dollardan 66 dollara qədər yüksəldi. Lakin analitiklərə görə, bu yüksəliş qısamüddətli olmaqla hazırkı səviyyədən yuxarı qalxma ehtimalı çox cüzidir. Çünki hətta Rusiya nefti böyük ölçüdə bazardan çıxsa belə, digər istehsalçıların onun yerini doldurmaq imkanları yetərincədir.

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın “Yeni Müsavat”a dediyinə görə, yeni sanksiyaların əsas məqsədi Rusiyanın enerji gəlirlərini azaltmaq, yeni neftin hasilatı və ticarətindəki gəlir axınlarını məhdudlaşdırmaqdır:** “Bu, çox ciddi məsələdir. ABŞ Maliyyə Nazirliyinin xüsusi qərarı ilə qəbul edilən sanksiya Avropa İttifaqı, yaxud Böyük Britaniyanın sanksiyalarına qəti bənzəmir, qat-qat təsirli və sərtdir. Neft iştreyderləri qlobal bazara neft təklifi riskini qiymətləndirməyə başladılar, çünki "Rosneft" və "Lukoyl" birlikdə Rusiyanın gündəlik hasilatının təxminən yarısını təmin edirlər (yəni 4,5-5 milyon barel/gün). Bu, qlobal bazarlar üçün kifayət qədər təsiredici çəkiyə malik həcmlərdir.

Qısamüddətli dövrdə (1-2 ay) dünya neft bazarları üçün xammal qıtlığı gözlənilmir, çünki OPEC+ ölkələri (xüsusən Səudiyyə Ərəbistanı və BƏƏ) əlavə hasilat ehtiyatına malikdir. ABŞ və Qərb şirkətləri öz hasilatlarını artırmaqla bazardakı kəsiri qismən kompensasiya edə bilərlər.

Bir məsələyə də diqqət yetirmək lazımdır ki, Rusiyanın “kölgə donanması” (Çin, Hindistan, BƏƏ üzərindən) hələ də tam bağlanmayıb və əvvəlki sanksiyalara baxmayaraq, hələ də bazarların müəyyən hissəsinə Rusiya nefti daşınmaqdadır".

**Ekspert bildirir ki, ABŞ-nin "Lukoyl"a qarşı sanksiyası Azərbaycan üçün bir sıra məqamlara görə təsirsiz ötüşməyəcək:** ""Lukoyl"a qarşı faktiki olaraq çəpərləmə əməliyyatı həyata keçirilir. Onun xarici ölkələrdəki layihələrinin yolu bağlanır. Düşünürəm ki, bu, "Lukoyl"un Türkiyədəki fəaliyyətlərinə kəskin təsir edəcək. Avropa İttifaqı artıq Rusiya neftindən emal olunan yanacağın öz ərazisinə idxalına qadağa qoyub. ABŞ isə Rusiyanın neft ixracının 60 faizə qədərini verən şirkətlərin yollarını bağlayıb. Məncə, Türkiyə hökuməti, həmçinin orada iş görən SOCAR bunu nəzərə almalı olacaqlar. Azərbaycan heç vaxt sivil dünyanın getdiyi yoldan kənarda qalmayıb, bu dəfə də qalmayacaq. SOCAR-ın Star zavodunun ixrac olunan emal məhsullarının hamısı Avropaya satılır. Buna görə də bu satışın davam etməsi üçün xammalın Rusiyadan alınmadığını sübut etməli olacaq”.

Qeyd edək ki, ABŞ və Böyük Britaniya "Lukoyl"un Azərbaycandakı layihələrinə 2 illik güzəşt dövrü tanıyıblar. İ.Şabanın sözlərinə görə, bu müddət bitənə qədər Rusiya Ukraynadakı işğalçı müharibədən geri durub sülhə nail olmasa, "Lukoyl" məcburən Azərbaycandakı aktivlərini satmalı olacaq: "Şirkətin “Şahdəniz” layihəsində 19,99 faiz, Cənubi Qafqaz Qaz Boru Kəmərində 19,99 faiz payı var. Bir vaxtlar İranın NİOK şirkəti də sanksiya siyahısına salınsa da, sonra ona qarşı istisna olundu. Lakin "Lukoyl"la bağlı güzəştin müddətinin uzadılıb-uzadılmaması yaxın 1 ildə Rusiya ilə Qərb arasındakı münasibətlərin inkişafından asılı olacaq. Hər hansı razılıq olmasa, şirkət nəinki Azərbaycan, həmçinin Özbəkistan, Türkmənistan, İraqdakı layihələrdən də kənarlaşdırıla bilər".

❑ **Dünya SAKİT,
“Yeni Müsavat”**



## Respublika Uşaq Kitabxanası “ağsaqqal yaşda”

**Bu il Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının yaranmasının 60 ili tamam olur. Yarandığı gündən tarixlə gələcək arasında körpü rolunu oynayan bu nüfuzlu elm məbədi minlərlə uşağın maariflənməsində, oxu vərdişlərinin formalaşmasında və ədəbiyyata sevginin aşılanmasında mühüm rol oynayıb. Kitabxana 1967-ci ildən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər ziyalı Firidun bəy Köçərlinin adını daşıyır.**

Kitabxanada Milli ədəbiyyat və ölkəşünaslıq şöbəsində “Qızıl fond”a daxil olan 1700-ə yaxın kitab qorunur. Bura ötən əsrin 20-ci illərindən 90-cı illərinə qədər yalnız bir dəfə nəşr olunmuş kitablar daxildir.

Burada həmçinin uşaqların və yeniyetmələrin oxu mədəniyyətini inkişaf etdirmək, mütaliəyə marağını artırmaq məqsədilə müxtəlif formatlı tədbirlər, kitab sərgiləri, müsabiqələr, debatlar, festivallar və s. təşkil edilir.

# “Bu sənədlərin hamısını KQB-nin arxivində tapdıq”

## Adil Babayev: “Türkoloji Qurultayın materiallarını su içərisindən çıxartdım”



**Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzaladığı barədə xəbər vermişdik.**

Qeyd edək ki, sərəncam Azərbaycanın və bütövlükdə Türk dünyasının elmi-mədəni tarixində mühüm mərhələ sayılan bu hadisənin əhəmiyyətini nəzərə alaraq qəbul edilib. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və AMEA yubileyə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirəcək.

1926-cı ilin fevralında Bakıda keçirilən Birinci Türkoloji Qurultay türk xalqlarının ortaq dil, mədəniyyət və əlifba birliyi istiqamətində dönüş nöqtəsi kimi dəyərləndirilir. Qurultayda səslənən ideyalar bu gün Türk dünyasının inteqrasiyasına, ortaq mədəni kimliyin möhkəmlənməsinə yol açan əsaslardan biri hesab olunur.

**Filologiya elmləri doktoru, professor Adil Babayev** Cebheinfo.az-a açıqlamasında bildirib ki, Prezidentin imzaladığı sərəncam yüksək dəyərləndirilməlidir. O qeyd edib ki, Turan ideyası Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu gün bütün dünyada geniş yayılır, lakin onun başlanğıcı məhz Azərbaycana dayanır: “Bu sərəncamı çox yüksək dəyərləndirirəm. Prezidentin 2006-cı və 2016-cı illərdə imzaladığı sərəncamların hər ikisini mən ayrıca monoqrafiyalarımda yerləşdirmişəm. Turan ideyası Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bütün dünyaya yayılır. Amma məhz Azərbaycandan başlayıb. "Turan birliyi" ideyası, türkün səsi ilk dəfə Bakıdakı İsmailiyyə binasının pəncərələrindən dünyaya yayılıb. Türkoloji Qurultayın materiallarını bir vaxtlar məhv etməyə çalışdılar. Həmin materialları ilk dəfə mən tapmışam. Mən onları arxivdən, bağlı qapı arxasından, su içərisindən çıxartdım. Sonradan onları təqdim etdim və nəticədə həmin sənədlər Dövlət Kitabxanasının fonduna 393 min 160 nömrəli element kimi daxil oldu. Mən bu məsələləri hələ 1960-cı illərdə də araşdırmışam. O vaxt mənə çox təzyiqlər oldu, hədələdilər, hətta öldürmək istədilər. Amma mən vətən oğlu olaraq bu yoldan dönmədim və bununla fəxr edirəm.

Yaxşı ki, sonradan hakimiyyətə Heydər Əliyev gəldi və buna icazə verdi. Namiz Abbasovun dəstəyi ilə KQB-nin arxivində bu sənədlərin hamısını tapdıq. Qurultayda iştirak edən şəxslərin siyahısı, materiallar, çıxışlar və s. toplandı. Bu tədqiqatlar əsasında iki kitab yazdım. Onlardan biri “Türksoyun birlik səsi” adlı monoqrafiyadır, 2006-cı ildə yazmışam. Kitaba Ağamusa Axundov ön söz yazıb. 2016-cı ildə isə “Birinci Türkoloji Qurultay və Azərbaycanda Türkologiya” adlı kitabımı çap etdirdim. İndi Elmlər Akademiyasında qərara gəliblər ki, “Türksoyun birlik səsi” kitabım yenidən nəşr olunsun".

**Adil Babayev əlavə edib ki, XX əsrdə Azərbaycanın yeni əlifbaya keçidi təşəbbüsü türk birliyi ideyasının başlanğıcı olub:** “Akademiyanın böyük zalında məruzə ilə çıxış etdim. 1921-ci ildə yeni əlifbaya keçmək təşəbbüsü Nərimanov tərəfindən irəli sürüldü. 1922-ci ildə isə Səməd ağa Ağamalıoğlu Moskvaya gedərək Lenindən yeni əlifbaya keçmək üçün icazə istədi. O, Leninə bildirdi ki, Azərbaycan xalqı artıq ərəb əlifbasından imtina etmək istəyir. Lenin soruşub ki, doğrudanmı bütün xalq istəyir ki, yeni əlifbaya keçsin? Ağamalıoğlu "bəli" cavabını verib.

Lenin bunu Şərqdə baş verən böyük inqilab adlandırıb və demək olar ki, yeni əlifbaya keçidə icazə verib. 1922-ci ildə Azərbaycana qayıtdıqdan sonra bu məsələ ilə bağlı təşkilat yaradıldı və bütün türk xalqlarının yeni əlifbaya keçməsi planlaşdırıldı. Leninin siyasəti Stalinin siyasəti qədər uzaqgörən deyildi. O başa düşməmişdi ki, türk xalqları birləşsə, vahid əlifba vasitəsilə bir-birini oxuyacaq, tanıyacaq və türk birliyinə doğru addım atacaq. Stalin isə bunu çox yaxşı anlayırdı.

1921-ci ilin yanvarında Əliheydər Qarayev Mərkəzi Komitəyə məktub göndərərək yeni əlifbaya keçidlə bağlı məsələ qaldırıb. Nəhayət, dörd nəfərdən ibarət Təftiş Komissiyası formalaşdırıldı. Komissiyada sədr Səməd ağa Ağamalıoğlu, üzvlər Vəli Xuluflu, Xalid Səid Xocayev və Cəlil Məmmədquluzadə idi. Komissiya Sovet respublikalarını dolandı ki, qurultaya elmi cəhətdən rəhbərlik etsin.

Özbəkistanı, Türkmənistanı, Qazaxıstanı gəzərək elə bir alim axtarırdı ki, həm türk xalqlarının dili, ədəbiyyatı, tarixi, həm də fonetik sistemi barədə dərin biliyə malik olsun və bu işə elmi rəhbərlik edə bilsin. Bir çox yerlərə getdilər, amma nəticə əldə edilmədi. Nəhayət, 1924-cü ilin aprelində Krım Universitetinə gedərək məqsədlərini bildirdilər. Onlar Şərqdə ilk elmlər doktoru, professor, 17 dildə mühazirə oxuya bilən görkəmli alim Bəkir Çobanzadəni Bakıya dəvət etdilər. Professor Çobanzadə dəvəti qəbul etdi və bildirdi ki, məmnuniyyətlə gələcəyəm, çünki Bakı digər yerlərə nisbətən daha müasirdir. O, həmin ilin sentyabrında Bakıya gəldi, yeni türk əlifbası komitəsinə elmi rəhbərlik etdi və qurultaya hazırlıqlar başladı. Azərbaycanın həmin dövrdəki rəhbəri, birinci katibi Yevan İsayeviç Mirzoyan adlı erməni idi. O, Rostov Vilayət Komitəsinin katibi olan Anastas İvanoviç Mikoyana məktub göndərib. Məktubda yazırdı ki, Bakıya gəl, görək nə edirik, türklər yığışıb birləşirlər. Mikoyan isə ona cavab verib ki, bu barədə Stalinə yaz. Mirzoyan da Stalinə məktub yazıb. Bundan əvvəl Əliheydər Qarayev də bu barədə yazmışdı. O da xalqımızın düşmənlərindən biridir. Stalin belə bir göstəriş (direktiv) göndərir ki, Yeni Türkoloji Qurultay yeni əlifba haqqında heç bir qərar qəbul edə bilməz. Sadəcə olaraq, gələcəkdə bu məsələnin mümkünlüyü barədə qərar qəbul edə bilər".

**Professor vurğulayıb ki, Birinci Türkoloji Qurultayda Bəkir Çobanzadə hamını yerində oturdub:** “Beləliklə, Türkoloji Qurultay 1926-cı ilin 26 fevralında açıldı. Qurultaya 131 nümayəndə gəlmişdi. Mən həmin nümayəndələrin hamısını bir-bir tapıb, kimlərin haradan gəldiyini araşdırıb qeyd etmişəm. Respublika üzrə bu işi məndən yaxşı bilən yoxdur. Qurultayda ümumilikdə 600 nəfər iştirak edib. Elə birinci iclasda istənilən alimdən soruşsan ki, niyə birinci gün cəmi bir iclas keçirildi, onlar deyəcəkdilər ki, Moskvadan gələn nümayəndələr narazılıq edirdilər. Onlar bildiriblər ki, əvvəlcə türk xalqlarının bir-birinə qohum olduğunu sübut etməliydiniz. Ondan sonra Türkoloji Qurultay keçirə bilərdiniz. Onlar bu yolla qurultayın gedişinə mane olmaq istəyirdilər. Çünki Moskvadan gələnlərin fikri o idi ki, türk xalqları üçün rus əlifbası qəbul edilsin. Bunun üçün hər kəsə vaxt verildi ki, türk xalqlarının qohumluğunu sübut etsin. Mən bu haqda həmin hadisələrdə iştirak edən Qəhrəman Qaraqaşlı adlı qoca bir kişidən öyrəndim. Onu 1963-cü ildə tapdım və görüşdüm. Rusiyadan gələn türkoloqlar danışdılar. Amma onların heç biri əsl türk sözü demədi. Nəhayət, qurultayda Bəkir Çobanzadə Mahmud Kaşğarinin "Divanü Lüğət-it-Türk" əsərindən nümunələr gətirərək dedi: “Baxın, türk xalqlarının ədəbi dili haqqında 11-12-ci əsrlərdə necə sübutlar var”. Ondan sonra qurultay davam etdi. Bəkir Çobanzadə hamını yerində oturtdu".

**Adil Babayev bildirib ki, Turan birliyi qurularsa, türklər öz qüdrətli dövrünə qayıda bilər:** “Bütün bunları illərlə araşdırmışam. Hətta sonuncu çıxışımda qeyd etdim ki, bu qurultayın materiallarını hansı bağlı, gizli fonddan, rütubətli bir yerdən tapmışam”.

**"Miss Azərbaycan-2019"un qalibi Səmra Hüseynovanın TikTok-da atılan "qara pullar"la bağlı səsləndirdiyi fikirlər sosial mediada böyük müzakirələrə səbəb olub. Model iddia edir ki, həmin şəxslər vergidən yayınmaq üçün bunları edir. Ümumiyyətlə, son vaxtlar sosial mediada TikTok və digər platformalarda qazanılan gəlirlər geniş müzakirə olunur. Azərbaycanda sosial media və internet üzərindən gəlir əldə edən şəxslər, əgər bu fəaliyyət müntəzəmdirsə və qazanc real gəlir kimi hesablanırsa, vergi ödəməlidirlər. Dövlət Vergi Xidmətinin açıqlamasına görə, sosial şəbəkələrdə reklam, canlı yayım və ya hədiyyələr vasitəsilə gəlir qazananlar illik gəlir vergisi bəyannaməsi təqdim etməlidirlər. Bu halda gəlir 14 faiz dərəcə ilə vergiyə cəlb olunur.**

# TikTok-da yuyulan "qara pullar" - nəzarət varmı?

## **İqtisadçıda sərt reaksiya:** "Təmizlik işçisi aldığı cüzi vəsaitdən vergi verirsə, o zaman hər kəs əldə etdiyi gəlirdən vergi verməyə borcludur"




TikTok, İnstagram, YouTube kimi platformalarda gəlir əsasən reklam müqavilələri, canlı yayım hədiyyələri və ya izləyici dəstəyi formasında əldə edilir. Əgər bu gəlirlər rəsmi hesablarda qeydiyyata alınmırsa və vergi orqanlarına bildirilmirsə, bu, vergidən yayınma halı sayılır. Son illərdə Dövlət Vergi Xidməti bu sahəyə nəzarəti gücləndirib, sosial media hesabları üzərindən müntəzəm gəlir qazanan şəxsləri izləməyə başlayıb.

Hazırda qanunvericilikdə sosial media gəlirlərinin ayrıca kateqoriya kimi tənzimlənməsi tam formalaşmayıb. Buna görə də bəzi şəxslər xaricdən gələn ödənişləri vergi öhdəliyindən kənar saxlayır. Bəzi deputatlar və ekspertlər belə gəlirlərin vergidən azad olunması və ya sadələşdirilmiş vergi rejiminə salınması təklifi ilə çıxış ediblər. Lakin hazırda qüvvədə olan qaydalara əsasən, istənilən müntəzəm onlayn gəlir - istər ölkə daxilindən, istərsə də xaricdən əldə edilsin - bəyan edilməlidir.

Vergi orqanları gəlirlərin yoxlanması üçün müxtəlif məlumat mənbələrindən, o cümlədən bank əməliyyatlarından və elektron platformalardan istifadə edir. Bu, həm şəffaflığın artırılması, həm də "qara pulların" qarşısının alınması məqsədi daşıyır.

TikTok-da qazanılan pullar vergidən yayındırılırmı? Bu onlayn biznesə necə nəzarət olunur?

Məsələyə hüquqi baxımdan açıqlama verən **hüquqşünas Əkrəm Həsənov** açıqlamasında (Demokrat.az) deyib ki, TikTok-da qazanılan vəsait sahibkarların bank hesabına köçürülür: "Əgər bu, sahibkar hesabına köçürülürsə, aydındır ki, vergi orqanı həmin əməliyyatı avtomatik görəcək və zəruri vergiləri tətbiq edəcək. Banklar hər ay sahibkarların hesabları barədə məlumatı Vergilər Xidmətinə təqdim edirlər, buna görə də bu proses şəffaf olur". **O bildirib ki, əgər vəsait sahibkar hesabına deyil, adi fiziki şəxsin bank hesabına köçürülürsə, bu halda vəziyyət fərqlənir:** "Formal olaraq, bu əməliyyat barədə vergi orqanına avtomatik məlumat getmir. Vergi orqanı yalnız xüsusi sorğu əsasında bankdan məlumat ala bilər, bu isə prosesi çətinləşdirir.

Məsələn, vergi orqanı soruşa bilər ki, həmin vəsaitin mənbəyi nədir. Şəxs isə cavab verə bilər ki, bu, dostum və ya tanışım tərəfindən göndərilib, yaxud kiməsə borc vermişdim, o da borcunu qaytarıb. Belə halda vergi orqanı sübut edə bilmədiyi üçün həmin məbləği birbaşa biznes fəaliyyəti kimi qəbul etməkdə çətinlik çəkəcək".

**Vəkil bildirib ki, yalnız o halda vergi tədbiri görülə bilər ki, şəxs özü vergi orqanına müraciət edib izahat versin və gəlirin kommersiya məqsədli olduğunu etiraf etsin:** "Əks halda, vergi orqanı bu əməliyyatı sübuta yetirməkdə çətinlik yaşayacaq".

**İqtisadçı Eldəniz Əmirov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb**: "Sosial şəbəkələr üzərindən əldə edilən bütün vəsaitləri "qara pullar" kriteriyasına aid etmək doğru deyil. Bunun ümumiləşdirilmiş adı varsa, biz bunu "bəyan edilməmiş gəlir" kimi qeyd edə bilərik və bəyan edilməmiş gəlir təbii ki, vergidən yayınmaya gətirib çıxarır. Rəsmi uçotda alınarsa, bu artıq qanun çərçivəsinə daxil olur və həmin vəsaitdən verginin tutulması mümkündür. İstər TikTok-da, istərsə də digər platformalarda gəlir əldə edən şəxslər normal halda - yeni qanunvericiliyin tələblərinə uyğun olaraq - vergiyə cəlb edilməlidirlər.

Mən hər dəfə qeyd etmişəm və bu dəfə də vurğulayıram ki, əgər bu gün parklarda, küçələrdə tiktokerlərin oturub yedikləri tumları süpürən təmizlik işçisi aldığı cüzi vəsaitdən vergi verirsə, çox aşağı əmək haqqına çalışan ayrı-ayrı insanlar, o cümlədən müəllimlər əməkhaqqından vergi ödəyirsə, o zaman hər kəs əldə etdiyi gəlirdən vergi verməyə borcludur - həm qanun qarşısında, həm də mənəvi baxımdan".

**İqtisadçı onu da əlavə edib ki, insanın həyat fəaliyyəti boyu müxtəlif yollarla gəlir əldə etməsi üçün imkanlar yaranır:** "Bu hallar sistemli xarakter aldıqda və çoxaldıqda artıq müvafiq dövlət qurumlarının diqqətini cəlb edir. Həmin dövriyyə ilkin və təxmini şəkildə təhlil edilir və daha sonra bunun qarşısının alınması üçün praktik addımlar atılır. Məsələn, 10 il əvvəl vergiyə cəlb edilməyən bəzi fəaliyyət növləri bu gün artıq vergiyə cəlb olunur. Düşünürəm ki, bu gün də vergidən kənarda qalan fəaliyyət sahələri mövcuddur. Həmin fəaliyyətlər hazırda vergidən yayınsa da, zamanla vergi intizamının və nəzarət mexanizmlərinin gücləndirilməsi, eləcə də qanunvericiliyə yeni müddəaların əlavə olunması ilə bu yayınmaların qarşısı alınacaq. Amma bu o demək deyil ki, proses bununla bitəcək. Qarşıdakı illərdə yeni-yeni fəaliyyət növləri ortaya çıxacaq və bu da iqtisadi cəmiyyətin daimi müzakirə olunan mövzularından biri olacaq. Bir tərəfdən gəlir əldə edənlər vergidən yayınmağa çalışır, digər tərəfdən isə müvafiq dövlət qurumları qanunvericiliyin tələbi ilə şəffaflığın təmin olunmasına və həmin gəlirlərin rəsmi uçota alınmasına çalışır".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Maaşlardan tutulacaq məbləğ açıqlandı



**Azərbaycanda 2019-cu ildən qüvvədə olan, qeyri-neft-qaz və qeyri-dövlət sektorlarında çalışanlar üçün nəzərdə tutulmuş gəlir vergisi ilə bağlı güzəştin müddəti artırılmayacaq.**

2026-cı ildə aylıq gəliri 2 500 manata qədər olanlar bunun 3%-i qədər vergi ödəyəcək.

2500 manatdan 8000 manatadək olan aylıq gəlirdən 75 manat + 2500 manatdan 8000 manatadək olan məbləğin 10 faizi və aylıq gəlir 8000 manatdan çox olduqda 625 manat + 8000 manatdan çox olan məbləğin 14 faizi gəlir vergisinə çıxılacaq.

2027-ci il yanvarın 1-dən 2028-ci il yanvarın birinədək 2500 manatadək aylıq gəlirdən 5 faiz, 2500 manatdan 8000 manatadək olan aylıq gəlirdən 125 manat + 2500 manatdan 8000 manatadək olan məbləğin 10 faizi və aylıq gəlir 8000 manatdan çox olduqda 675 manat + 8000 manatdan çox olan məbləğin 14 faizi gəlir vergisinə çıxılacaq.

2028-ci il yanvarın 1-dən isə 2500 manatadək aylıq gəlirdən 7 faiz, 2500 manatdan 8000 manatadək olan aylıq gəlirdən 175 manat + 2500 manatdan 8000 manatadək olan məbləğin 10 faizi və aylıq gəlir 8000 manatdan çox olduqda 725 manat + 8000 manatdan çox olan məbləğin 14 faizi gəlir vergisinə çıxılacaq.

"Qafqazinfo" saytında sözügedən məsələ ilə bağlı dərc edilən məqalədə bildirilir ki, hazırda Azərbaycanda əməkhaqqı 200 manatdan çox olduqda: 6 manat + 10% DSMF ayırmaları tutulur. Bundan başqa, işçilər 0.5% işsizlikdən sığorta haqqı, 2% isə icbari tibbi sığorta haqqı ödəyir.

Layihəyə əsasən, üzərinə 3% gəlir vergisi də əlavə olunarsa və DSMF ayırmalarına tutulan hissə dəyişməzsə, vergidən tutulmalar aşağıdakı kimi olacaq:

Məsələn, aylıq maaşınız 1 000 manatdırsa;
Gəlir vergisi: 30 AZN
DSMF ayırmaları: 86,00 AZN
İşsizlikdən sığorta haqqı: 5,00 AZN
İcbari tibbi sığorta: 20,00 AZN
Tam əməkhaqqı: 859 AZN

YENİ MÜSAVAT
N 193 (8803) 24 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

# Suyumuza zəhər qatanlar...

## Suyu çirkləndirən amillərdən necə qurtulaq?

**Azərbaycanda su çirklənməsi ölkənin əsas ekoloji problemlərindən biridir. Kür və Araz çayları əsas su ehtiyatları kimi müxtəlif növ çirkləndirici tullantılarla çirklənir.**

Sənaye müəssisələrinin, kənd təsərrüfatının və şəhərsalma fəaliyyətlərinin nəticəsi olaraq bu çaylara kimyəvi maddələr, tullantı suları və zəhərli maddələr qarışır. Bu çirklənmə yalnız su ehtiyatlarının tükənməsinə səbəb olmaqla qalmır, həm də içməli su mənbələrinin çirklənməsi insan sağlamlığı üçün ciddi təhlükə yaradır. Su çirklənməsi həmçinin ətraf mühitə, canlı orqanizmlərə və torpaq sistemlərinə də mənfi təsir göstərir. Balıqçılıq və su ekosistemlərinin məhv olması, əhali arasında suyla əlaqəli xəstəliklərin yayılması və ərzaq təhlükəsizliyinin təhdid altında olması bu problemin daha da dərinləşməsinə səbəb olur.

Bu problemi həll etmək üçün tullantı sularının təmizlənməsi və müasir təmizləmə texnologiyalarının tətbiqi vacibdir. Sənaye müəssisələri və kənd təsərrüfatı sahələri üçün daha sərt ekoloji standartlar və nəzarət mexanizmləri qoyulmalıdır. Su mənbələrinin qorunması və onlardan düzgün istifadə ilə bağlı ictimai maarifləndirmə kampaniyalarının keçirilməsi əhəmiyyətlidir. Həmçinin su ehtiyatlarının idarə olunmasında innovativ yanaşmaların tətbiqi və müasir suyun idarə edilməsi texnologiyalarına sərmayə qoyuluşu lazımdır.

Suyun çirklənməsi çaylar, göllər, okeanlar və yeraltı sular kimi su ehtiyatlarının insan fəaliyyəti nəticəsində yaranan radioaktiv maddələr, plastik və kimyəvi tullantılar kimi zərərli maddələrlə çirklənməsidir.

Suyun çirklənməsinə səbəb olan maddələr və onların əsas səbəblərini aşağıdakı kimi kateqoriyalaşdırmaq olar:

*Məişət tullantı suları

*Sənaye fabriklərinin tullantıları

*Kənd Təsərrüfatı Fəaliyyətləri ilə

*Septik Tank Sızmaları

*Neft dağılması

*Heyvan Tullantıları

*Kimyəvi maddələr

*Çeşidlənməmiş Zibil

*Qlobal istiləşmə

*Plastik çirklənməsi

*Radioaktiv Tullantılar

*Kənd Təsərrüfatı Pestisidləri və Gübrələri.

Keçək su çirklənməsi nəticəsində insan orqanizminə dəyən ziyana. Suyun çirkləndirən əsas maddələrə bakteriya, viruslar, parazitlər, pestisidlər və oxşar maddələr daxildir. Bu maddələr bir çox sulara qarışdıqda gözə görünməyən çirkləndiricilərdir və insan sağlamlığına ciddi ziyan vurur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, hər il 1 milyarddan çox insan su ilə yoluxan xəstəliklərə yoluxur və bütün dünya üzrə ölüm hallarının 1,4%-ni sudan qaynaqlanan xəstəliklər təşkil edir.

Amma problem varsa, çıxış yolu da var. Su çirkliliyinin qarşısının alınması üçün nələr etmək lazımdır?



*Şüurlu şəkildə su istifadə qaydalarına riayət etmək və əlimizdən gəldiyi qədər suya qənaət etmək;

*Bidon və plastik sulardan mümkün qədər az istifadə etmək;

*Yuyucu və ağardıcı kimi təmizləmə vasitələrindən mümkün qədər az istifadə etmək;

*İçmək üçün su filtrlərindən istifadə etmək;

*Kağız, şüşə, plastik və akkumulyator zibillərini ayırıb təkrar emal qutularına atmaq;

*Binalarda və sənaye sahələrində boz su təmizləyici sistemlərdən istifadə;

*Suyun çirklənməsi haqqında maarifləndirmək və ətraf mühitimiz haqqında məlumatlılığı artırmaq;

*Su ehtiyatlarının qorunması üçün qanuni tənzimlələrin tələb edilməsi.

Çirklənmədən ən çox şirin su mənbələri zərər çəkir. Məişətdə, texnikada və kənd təsərrüfatında işlənən sular çayların və şor olmayan göllərin suyudur. Qeyd edək ki, hazırda bir çox ölkələrdə içməli su ticarət obyektinə çevrilib. Avropanın Almaniya, Niderland, Danimarka kimi inkişaf etmiş ölkələri içməli su satın alırlar. Suyun çirklənməsi onda həll olmuş oksigenin miqdarının azalmasına da səbəb olur. Oksigenin azlığı isə suda yaşayan bitkilər və heyvanların həyat fəaliyyətini çətinləşdirir, biokimyəvi proseslərin normal gedişi üçün əlverişli olmayan mühit yaradır. Təbii suların neft və neft məhsulları ilə çirklənməsi daha ağır nəticələr verir. Neft suda yaşayan canlı aləm üçün kəskin zəhər mənbəyidir. Əsas təbii su hövzəsi olan Xəzər dənizinə bütün mənbələrdən ildə təxminən 12 mlrd. kub.m çirklənmiş sular axıdılır ki, bunun da 80 faizi Rusiyanın payına düşür. Azərbaycan ərazisindən isə dənizə hər il 250 mln. kub.m-dən artıq çirkli su axıdılır. Nəticədə Bakı buxtasında 60 mln. kub.m-dən çox çirkləndirici maddələr toplanıb. Kürün suyunun 74%-i isə Gürcüstan və Ermənistan ərazilərindən formalaşır və həddən artıq çirklənməyə məruz qalır. Hesablamalar göstərir ki, Kür çayı hövzəsinə Ermənistandan (Arazla) ildə orta hesabla 300 mln.kub.m, Gürcüstandan 265 mln.kub.m, Azərbaycandan isə 25 mln.kub.m çirklənmiş su atılır və nəticədə Kür çayı suyunun mis, sink, fenol, neft məhsulları və s. zərərli maddələrlə həddən artıq çirklənməsi müşahidə edilir. Bundan başqa, təmizlənməmiş təsərrüfat-məişət çirkab suları ilə çaya ildə 40 min ton üzvi maddələrin axıdılması oksigenin biokimyəvi istifadəsinin kəskin artmasına səbəb olur. Kür çayında fenolların miqdarı normadan 10 dəfə, karbohidrogen isə 36 dəfə artıqdır.

**Nəticə etibarilə suyun çirklənməsi bəşəriyyət üçün ciddi problemdir, lakin onun həlli üçün bir çox yollar var:**

* Təbii ehtiyatlarla daha diqqətli davranmağı öyrənmək;

* Daha təkmil su təmizləmə mexanizmlərinin yaratmaq;

* Sənayedə tullantısız texnologiyaların tətbiqi, təmizlənmiş tullantı sularının təkrar istifadəsi (məsələn, kənd təsərrüfatında) və s.

Bu problemlə məşğul olmaq mümkündür və lazımdır. Və elmin bir yerdə dayanmadığını nəzərə alsaq, bu mübarizənin nəticəsini görəcəyimizə ümid etmək olar. Mütəxəssislərin sözlərinə görə, hazırda suyu zərərsizləşdirmək üçün atomar oksigendən istifadə daha müasir və daha sərfəli üsul hesab olunur. Bu zaman oksigen molekulları xüsusi qurğuda atomlara çevrilir, əmələ gəlmiş oksigen atomları sudakı bakteriyaları, yosunları, kif göbələklərini və virusları məhv edir. İlk növbədə, çirklənmənin nədən qaynaqlandığını araşdırmaq lazımdır. Suyun çirklənməsinə nəzarət etməyin effektiv yollarından biri də su sərfiyyatını minimuma endirməkdir. Bundan əlavə, kənd təsərrüfatı fəaliyyətlərində istifadə olunan kimyəvi maddələrin əvəzinə təbii gübrələrin və üzvi məhsulların istifadəsi ətraf mühitin və suyun çirklənməsinin qarşısının alınması üsullarından biridir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Volqa çayı Xəzəri "qurudur"

## Ekoloji təhlükəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir

**Son illərdə Xəzər dənizinin səviyyəsinin sürətlə enməsi region dövlətləri arasında ciddi narahatlıq yaradan məsələlər sırasında yer alır.**

Prezident İlham Əliyev də son çıxışlarında, o cümlədən "Kazinform" agentliyinə verdiyi açıqlamada Xəzər dənizinin səviyyəsinin azalması problemini strateji əhəmiyyət kəsb edən məsələ kimi dəyərləndirib.

Qeyd edək ki, Xəzərdə suyun azalmasının bir çox səbəbləri var. Bunlar arasında iqlim dəyişikliyi ən vacib rol oynasa da, Rusiya ərazisindəki Volqa çayının da rolu çox vacibdir.



Modern.az-a açıqlamasında **Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Vüqar Rəhimzadə** bildirib ki, Xəzər dənizi ciddi ekoloji problemlərlə üz-üzədir.

Onun sözlərinə görə, son illər ərzində dənizin səviyyəsi bir metrdən çox aşağı düşüb. Bu, yalnız ölkəmizin problemi deyil. Beş Xəzəryanı ölkə bu problemi həll edərək Xəzəri qoruya bilər.

"Prezident İlham Əliyev "Kazinform"a eksklüziv müsahibəsində də bu məsələyə toxundu. Dövlətimizin başçısı qeyd etdi ki, bu gün Xəzər dənizi bir sıra ciddi ekoloji problemlərlə üz-üzədir. Ən aktual məsələlərdən biri dayazlaşma - həm ekoloji, həm də iqtisadi təhlükələr yaradan suyun səviyyəsinin sürətlə azalmasıdır.

2022-ci ildə keçirilən VI Xəzər Zirvə Görüşündə mən Xəzər dənizində ekoloji tarazlığın pozulması məsələsini qaldırdım. Təəssüf ki, o vaxtdan bəri vəziyyət ancaq pisləşib. Xəzərdə suyun səviyyəsi sürətlə aşağı düşür və bunun səbəbləri təkcə iqlim dəyişikliyi ilə bağlı deyil. Yaranmış şəraitdə bütün Xəzəryanı ölkələr arasında sıx əməkdaşlıq qurmaq, fəal elmi informasiya mübadiləsi aparmaq və nəticələrin yumşaldılması üçün əlaqələndirilmiş tədbirlər işləyib hazırlamaq çox vacibdir.

Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi və bununla bağlı ekoloji dəyişikliklər biomüxtəlifliyi və ekosistemin dayanıqlılığını təhdid edir ki, bu da təbiətin mühafizəsi və ekoloji tarazlığın bərpası üçün əlaqələndirilmiş tədbirlərin görülməsi zərurətini yaradır. Azərbaycan, Qazaxıstan və digər Xəzəryanı ölkələr regional və beynəlxalq platformalarda Xəzərin mühafizəsi təşəbbüslərini fəal şəkildə irəli sürə bilərlər. Artan transmilli ekoloji risklər şəraitində Xəzər dənizi, sadəcə, su hövzəsi deyil, ortaq məsuliyyət və birgə fəaliyyətin zəruriliyinin rəmzinə çevrilir".

**Deputat vurğulayıb ki, Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır:** "Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi yeni bir hal deyil, amma son illərdə proses sürətlənib. Xəzər dənizinə tökülən ən iri su mənbəyi olan Volqa çayı üzərində çoxsaylı hidrotexniki qurğuların tikilməsi və axının tənzimlənməsi isə təbii dövrətməni pozub və suyun səviyyəsini azaldıb. Volqa üzərində iri su anbarlarının inşa edilməsi Xəzər dənizinə mənfi təsir edir, balansı pozur. Əgər əvvəllər Xəzərin yaşaması üçün müəyyən balans qorunurdusa, indi bu, nəzərə alınmır".

Vüqar Rəhimzadə yekun olaraq onu da əlavə edib ki, Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması dövlətimiz üçün vacib məsələlərdən biridir. Deputatın fikrincə, ekoloji təhlükəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir.

## Şəkidə qəzada ölən qardaş və bacıların fotosu



**Oktyabrın 21-də Oğuz-Şəki avtomobil yolunda baş verən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı yeni təfərrüat məlum olub. Belə ki, Baku.TV-nin hazırladığı reportajda qəza nəticəsində həyatını itirən qardaş və iki bacının yaxınları hadisə barədə danışıblar. "Bir ailəni başsız qoydu. Qardaşımın, uşaqların üzünə baxa bilmirik. Gəlinimizin üç uşağı yetim qaldı", - qohumlardan biri söyləyib.**

Qeyd edək ki, iki avtomobilin toqquşması nəticəsində maşınların birində olan 44 yaşlı Pərvanə Mehdiyeva, onun bacısı 26 yaşlı Yeganə Məmmədova və qardaşı 33 yaşlı Turan Rəsullu hadisə yerində dünyasını dəyişiblər. Digər avtomobilin sürücüsü 48 yaşlı Ədalət Abbasov və sərnişini 43 yaşlı Nuranə Həsənova ağır xəsarət alıb. Faktla bağlı araşdırma aparılır.

## Sürücülərə radar xəbərdarlığı



**Daxili İşlər Nazirliyi sürücüləri diqqətli olmağa, yol hərəkəti qaydalarına ciddi riayət etməyə çağırır. Bu barədə DİN-dən məlumat verilib.**

Bildirilib ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması, sürücü mədəniyyətinin artırılması və qəzalara səbəb olan amillərin aradan qaldırılması nazirliyin əsas prioritet istiqamətlərindəndir: "Baş verən qəzalarda sürət həddinin aşılması, radar qurğularına yaxınlaşdıqda sürəti azaldıb sonra yenidən artırmaq kimi məsuliyyətsiz davranışlar insan həyatına ciddi təhlükə yaradır. Unutmaq olmaz ki, radar sürücünün yolda sürət həddini müəyyən edən, həyatı qoruyan və təhlükədən çəkindirici vasitə olan təhlükəsizlik kəməridir".

# Taksi sürücüləri lisenziya üçün gecədən növbə tuturlar

## Kvotanın tətbiqindən sonra sürücülər işsiz qalacaq?

**AYNA-nın yeni tətbiq etdiyi qaydalar taksilərin sayını məhdudlaşdırsa da, indi buraxılış vərəqi almaq prosesi sürücülər üçün ciddi problemə çevrilib. Onlar sənəd əldə etmək üçün saatlarla, bəzən gecənin yarısınadək növbədə gözləməyə məcbur qalırlar.**

Yeni qərara əsasən, paytaxtda taksi fəaliyyəti üçün ümumilikdə 25 min icazə limiti müəyyən edilib. Limitin tətbiqinə az vaxt qaldığı üçün sürücülər sənəd almaq məqsədilə günün istənilən saatında növbəyə düzülürlər. İcazələrin verilməsi müraciət ardıcıllığı və növbəlilik prinsipi əsasında həyata keçirilir. Lakin sürücülər bildirirlər ki, sistemdəki nizamsızlıq və uzun gözləmə saatları prosesi çətinləşdirib: "Gecə-gündüz buradayıq, amma kim gəlir, kim gedir - heç kim bilmir!" - deyə narazı taksi sürücüləri qeyd ediblər.

Onlar aidiyyəti qurumlardan növbə sisteminin şəffaf şəkildə qurulmasını və sənədvermə prosesinin sürətləndirilməsini tələb edirlər.

AYNA isə bir neçə gün əvvəl taksi fəaliyyəti üçün buraxılış vəsiqələrinin və buraxılış kartlarının verilməsinin 2025-ci il 31 dekabr tarixinə kimi davam edəcəyini açıqlayıb.




Qanunvericiliyin tələblərinə müvafiq olaraq taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin sayına məhdudiyyətin tətbiqi ilə əlaqədar 60 gün öncədən məlumat verilməlidir. Qeyd edilənі, eləcə də icazələrin verilməsinə kvotanın tətbiq edilməsi haqqında qərarın 1 noyabr tarixindən qüvvəyə minməsini nəzərə alaraq taksi fəaliyyəti üçün buraxılış vəsiqələrinin və buraxılış kartlarının verilməsi 2025-ci il 31 dekabr tarixinə kimi davam edəcək: "Həmçinin taksi fəaliyyəti ilə məşğul olan şəxslərə çağırış etmək istərdik. Belə ki, növbəti illərdə istehsal tarixindən 15 il ötmuş avtomobillərin taksi fəaliyyəti üçün istifadəsi mümkün olmayacaq. Bunu nəzərə alaraq, köhnə nəqliyyat vasitələrinin, xüsusən də istehsal tarixi 2011-ci il olan avtomobillərin verilmiş müddət ərzində yenilənməsi tövsiyə olunur. Qeyd etmək istərdik ki, kvotanın tətbiqindən sonra qiymətlərin artacağı, sürücülərin iş yerlərini itirəcəyi ilə bağlı yayılan məlumatlar yalnışdır. Hazırda taksi fəaliyyəti üçün 35 000 aktiv icazə mövcuddur. Gün ərzində isə bunlardan yalnız 22 000 - 23 000 taksi minik avtomobili xidmətə çıxır. Yeni kvotanın 25 000 təyin edilməsi bazara təsir etməyəcək və taksi çatışmazlığı baş verməyəcək. Əksinə, peşəkar əmək və xidmət bazarı formalaşacaq və əhaliyə göstərilən taksi xidmətinin keyfiyyəti daha da yüksələcək.

Kvotanın tətbiqindən sonra sürücülərin iş yerlərini itirəcəyi ilə bağlı məsələyə aydınlıq gətirərək bildiririk ki, limit sürücülərin deyil, nəqliyyat vasitələrinin sayına tətbiq edilir, yəni bu addım iş yerlərinin sayına təsir göstərməyəcək. Hazırda taksi daşımalarında sürücülərə kifayət qədər tələbat mövcuddur. Taksi fəaliyyəti göstərən sürücülərin təlimləri və hazırlıq işləri davam etdirilir. Bir nəqliyyat vasitəsi bir neçə sürücü tərəfindən idarə oluna bilər və bu, taksi daşımalarında iş və istirahət rejiminə riayət olunmasına töhfə verəcək".

"Taksi sahəsində təxminən 1 il əvvəl islahatlar başlayanda da cəmiyyətdə müəyyən narahatlıqlar var idi. Lakin nəticə göz qabağındadır. İslahatların birinci mərhələsində taksi parkının yenilənməsi, uçotun, nizamlı fəaliyyətin və nəzarət mexanizminin qurulması, sürücülərin təlimlərə cəlb edilməsi istiqamətində atılan addımlar ciddi keyfiyyət artımını təmin etdi. Hazırda həyata keçirilən islahatların bu mərhələsinin məqsədi bu sahədə daha da keyfiyyətli və nizamlı xidmətə nail olmaqdır", - məlumatda deyilir.

❑ "Yeni Müsavat"

# Piyada ölümlərinin artmasının əsl səbəbi

## DYP insanları öz həyatını təhlükə altına atmamağa çağırır; ekspert: "Piyada keçidinə 100-150 metr qalmış xəbərdarlıqedici nişanlar..."

**DİN-in Baş Dövlət Yol Polisi İdarəsi piyadalara müraciət edib. Müraciətdə deyilir: "Yollarda müşahidə olunan ən təhlükəli hallardan biri piyadaların yol hərəkəti qaydalarına laqeyd yanaşmasıdır. Bəzən insanlar yaxınlıqda yeraltı və ya yerüstü piyada keçidi olduğu halda, sədləri aşaraq və ya yolun hərəkət hissəsinə çıxaraq öz həyatlarını təhlükəyə atırlar. Bir anlıq tələskənlik, diqqətsizlik və ya səhlənkarlıq bir çox hallarda faciəvi nəticə ilə bitir.**

Aparılmış araşdırmalar göstərir ki, piyada vurulması ilə nəticələnən hadisələrin 90 faizdən çoxu məhz piyada keçidlərindən kənarda baş verir. Bu fakt bir daha göstərir ki, qaydalara əməl etmək, sadəcə, tövsiyə deyil, həyatın qorunması üçün zəruri şərtdir. Unutmaq olmaz ki, əgər piyadanın qayda pozuntusu törətməsi nəticəsində yol-nəqliyyat hadisəsi baş verərsə və bu hadisə insanın xəsarət almasına və ya ölümünə səbəb olarsa, bu artıq cinayət məsuliyyəti yaradır.

Beləliklə, DYP-nin də yaydığı müraciətdən məlum olur ki, piyada vurulması ilə nəticələnən hadisələrin 90 faizdən çoxu məhz piyada keçidlərindən kənarda baş verir.

Bəs vətəndaşların piyada keçidlərindən az istifadə etməsinin səbəbi nədir - uzaqda olması, yoxsa keçidlərin sayı azdır?

**Nəqliyyat eksperti Eldəniz Cəfərov** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, bu gün piyada keçidlərinin bir qismi piyadalar üçün nəinki əlverişli, hətta təhlükəli yerlərdə təşkil olunub: "Məsələn, qəfil döngələrdə, eniş və yoxuşlarda eyni səviyyəli piyada keçidlərinin salındığını müşahidə edirik. Bundan başqa, bəzən piyada keçidinə 100-150 metr qalmış xəbərdarlıqedici nişanlar, yaxud sürətin azaldılmasını tələb edən göstəricilər yerləşdirilmir. Halbuki belə nişanlar zəruridir. Məsələn, piyada keçidinə 150



metr qalmış həm xəbərdarlıq nişanı, həm də sürətin minimuma endirilməsini bildirən göstərici olmalıdır. Əgər şəhər mühitində avtomobillər saatda 60 km sürətlə hərəkət edirsə, keçidə yaxın məsafədə bu sürətin 30 km-ə qədər azaldılmasını bildirən nişan mütləq qoyulmalıdır. Çünki sürücü piyada keçidinə qəfil çatarsa, nə qədər tormozlasa da, toqquşma ehtimalı yüksək olur və bu, çox zaman faciə ilə nəticələnir".

**Ekspert qeyd edib ki, piyadalar arasında da yolkeçmə mədəniyyəti ilə bağlı ciddi problemlər var:** "Bəziləri yolu istədiyi yerdən keçir, bəziləri çarpaz istiqamətdə, digərləri isə velosiped və ya skuter üzərində hərəkət edərək yolu keçir. Bu, məsuliyyətsizlikdir. Çox təəssüf ki, bir çox sürücülər də qaydaları ya tam, ya da qismən bilirlər. Qismən ona görə ki, bəzi sürücülər, ümumiyyətlə, yol hərəkəti qaydalarının bir çoxundan xəbərsizdir, qanunları bilmir, sürmə bacarıqları zəifdir. Amma elə sürücülər də var ki, kurslarda təhsil alıb qaydaları öyrənir və ona əməl edir. Piyadalar isə bu bilikləri heç yerdə almır. Bəs onları kim öyrətməlidir? Orta məktəblərdə yol hərəkəti qaydalarını izah edən ayrıca bir fənn yoxdur. Bəzən müəyyən fənlərin çərçivəsində bu barədə qısaca danışılır, lakin bu kifayət deyil. Əgər orta məktəb proqramında "Yol hərəkəti təhlükəsizliyi" adlı konkret fənn olsa və həftədə heç olmasa bir saat bu mövzuda dərs keçirilsə, insanlar yolda davranış qaydalarını öyrənər, nəticədə bu qədər ağır xəsarətlər və faciələr baş verməzdi.

Əslində hər bir insan evindən çıxandan sonra onun hərəkəti "Yol hərəkəti haqqında" Qanunla tənzimlənir - bu, həm sürücülərə, həm də piyadalara aiddir. Bəzən piyadalar bunun fərqinə varmır, lakin qanun hər iki tərəfə bərabər şəkildə şamil olunur. Deməli, orta məktəblərdə bu mövzuya ciddi yanaşmaq və ayrıca fənn kimi tədris etmək vacibdir".

**Eldəniz Cəfərov həmçinin vurğulayıb ki, piyadaların keçidlərdən istifadə etməməsinin müxtəlif səbəbləri var:** "Bəziləri məsuliyyətsizlik və səhlənkarlıq ucbatından keçiddən keçmir, istədiyi yerdən yolu keçir, bəziləri isə gecə saatlarında, hətta 8 zolaqlı magistral yollarda belə keçməyə cəhd göstərir. Bu cür hallarda həm özlərini, həm də sürücüləri təhlükəyə atırlar. Digər tərəfdən, elə piyadalar da var ki, keçidi əlverişli hesab etmədikləri üçün istifadə etmirlər. Məsələn, yeraltı keçid ticarət məntəqəsinə çevrilib, ora daxil olmaq çətindir, yaxud texniki problemlər var. Yaşlı, xəstə və ya əlil insanlar üçün yeraltı keçidlərdən istifadə etmək, enmək və qalxmaq çox çətin olur. Eyni zamanda yerüstü keçidlər də ahıl insanlar üçün fiziki baxımdan əlverişli sayılmır".

**Ekspertin fikrincə, bu səbəbdən yerüstü keçidlər əsas yox, alternativ vasitə kimi nəzərdə tutulmalıdır:** "Yollarda isə əsasən eyni səviyyəli, təhlükəsiz, işıqlanmış və düzgün nişanlanmış piyada keçidləri təşkil edilməlidir. Əlavə olaraq, alternativ variant kimi həm yeraltı, həm də yerüstü keçidlər də mövcud ola bilər. Beləcə, həm piyadaların, həm də sürücülərin təhlükəsizliyi təmin edilər".

❑ Xalidə GƏRAY, "Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 193 (8803) 24 oktyabr 2025

Oktyabr

## Bunları bilirsinizmi?

* Səudiyyə Ərəbistanı ərazisində çay mövcud deyil.
* Yarım kilo bal edə bilmək üçün arılar iki milyondan çox çiçəkdən bitki yığmaq məcburiyyətindədirlər.
* Yetkin bir ayı bir at qədər sürətli qaça bilər.
* Zürafələrin dilinin uzunluğu 35 sm-dir. Və onlar üzməyi bacarmırlar.
* Sağ əlini istifadə edən insanlar sol əlini istifadə edənlərə nisbətən doqquz il daha çox yaşayırlar.
* Sarışınların əsmərlərdən daha çox saçı vardır.
* Yeni Zelandiya dünyadakı hər cür iqlimin mövcud olduğu tək ölkədir.
* Yetkin bir insan gündə 23 min dəfə nəfəs alır.
* Zürafələrin səs telləri yoxdur.
* Su çox içməyin - daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.
* Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
* İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
* Niaqara şəlaləsindən düşüb sağ qala bilən ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
* Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
* İnsan ildə ən az 1460 ədəd yuxu görür.
* "Karaoke" sözü yapon dilində "quru orkestr" sözünün qısaldılmasıdır. "Kara" yapon dilində boş deməkdir.
* Ördəyin səsi əks-səda vermir.

# Ağrıkəsicilər böyrəklərin "evini yıxır"



**Həkim ağrıkəsicilərin nəzarətsiz qəbulu zamanı böyrəklərin ciddi zədələnmə riski barədə xəbərdarlıq edib. Milli.Az xəbər verir ki, rusiyalı nefroloq, tibb elmləri namizədi Aleksey Reznikov açıqlamasında bildirib ki, ağrıkəsicilər səhv istifadə edildikdə böyrəklər üçün ən təhlükəli dərmanlardan biridir.**

Onun sözlərinə görə, insanın həkimlə məsləhətləşmədən və ya tibbi müayinə keçmədən özbaşına ağrıkəsici qəbul etməsi fəsad ehtimalını qat-qat artırır. Xüsusilə bu dərmanların asan əldə olunması və aktiv reklam edilməsi vəziyyəti daha da təhlükəli edir.

Reznikov qeyd edib ki, ağrıkəsicilərin nəzarətsiz istifadəsi analgetik nefropatiyaya, yəni böyrək toxumalarının zədələnməsi ilə müşayiət olunan xroniki xəstəliyə səbəb ola bilər. Bu, zamanla böyrəklərin süzmə funksiyasını pozur və ağır hallarda dializ və ya böyrək köçürülməsi zərurəti yarada bilər.

Xəstəliyin ilkin mərhələləri çox vaxt əlamətsiz keçir, buna görə insanlar yalnız şişkinlik, təzyiq artımı və ya sidikdə qan aşkar edildikdə həkimə müraciət edirlər. Onlar isə çox vaxt ağrıkəsici qəbulunu davam etdirərək vəziyyəti daha da pisləşdirirlər.

Mütəxəssis əlavə edib ki, uzunmüddətli fenasetin, aspirin və QNSƏ (qeyri-steroid iltihabəleyhinə dərmanlar) istifadəsi böyrəklərə zərər riskini artırır.

Reznikovun fikrincə, ağrıkəsicilər yalnız həkim məsləhəti ilə və təyin olunmuş dozalarda qəbul edilməlidir. Xüsusilə böyrək, ürək-damar və qaraciyər xəstəlikləri olan şəxslər bu qaydaya ciddi əməl etməlidirlər.



# Emosional asılılığı göstərən 5 əlamət

**Birinə bağlanmaq hissi əsasən beyində xoşbəxtlik hormonu ifraz edən kimyəvi maddələrlə bağlıdır. Oxu.Az xəbər verir ki, bu barədə "Verywell Mind" nəşrində dərc edilən məqalədə məlumat verilir. Bildirilir ki, sevdiyiniz şəxslə birlikdə olanda beyində "mükafat" sistemi işə düşür və həyəcan hissi davam etməyə başlayır. Məqalədə birinə bağlılığın beş əsas əlaməti vurğulanır:**

- Həmin şəxs olmadıqda həyatınızı idarə etməkdə çətinlik çəkirsiniz;
- Bütün ehtiyaclarınızın yalnız həmin şəxs tərəfindən qarşılanması lazım olduğunu hiss edirsiniz;
- Onun mənfi davranışlarına ifrat reaksiya verirsiniz;
- Köhnə dostlarınıza və yaxınlarınıza daha az vaxt ayırır, yalnız onunla olmaq istəyirsiniz;
- Dünyada sizi sevəcək tək insanın o olduğuna inanırsınız.

Qeyd olunur ki, birisinə bağlanmağa meyilli insanlar emosional qeyri-sabitlik, impulsivlik və özünəhörmətin aşağı səviyyədə olmasından əziyyət çəkə bilərlər. Genetik və mühit amilləri də bağlanma riskini artırır.

# "Üç kreslo sindromu" yuxusuzluğa səbəb olur



**Bütün günü oturaq həyat keçirirsinizsə, bu, yuxusuzluğun əsas səbəblərindən birinə çevrilə bilər. Teleqraf xəbər verir ki, bu barədə Rusiyanın əməkdar həkimi Roman Buzunov mətbuata bildirib. O deyib ki, yuxu pozğunluğuna səbəb olan problemlərdən biri "üç kreslo sindromu"dur: avtomobildə (ictimai nəqliyyatda), işdə və evdə televizor qarşısında oturmaq. Mütəxəssis izah edib ki, fiziki məşqlər yuxusuzluğa səbəb olan stresslə mübarizənin ən yaxşı yollarından biridir.**

Professorun sözlərinə görə, gün ərzində gəzinti, idman və ya ən azı normal fəaliyyət stressi aradan qaldırmağa kömək edir. Ancaq oturaq həyat tərzi keçirib, həftə sonları "yatmaq" vəziyyəti daha da pisləşdirir. Mütəxəssis əlavə edib: "Müasir böyük şəhərlərdə sakinlərin ən azı 10%-i həftə sonları "bütün həftə" yatır və orta hesabla 4 saat sonra qalxır. Bu nə deməkdir? Əslində bu, sosial reaktiv gecikmədir (ev şəraitində saat qurşağının dəyişməsi sindromu)".



# Yupiter və Saturna bənzər iki planet kəşf edildi

**Astronomlar xüsusiyyətləri həm Yupiterə, həm də Saturna bənzəyən iki qeyri-adi ekzoplanet kəşf ediblər. Kəşf İrvin Kaliforniya Universitetinin rəhbərlik etdiyi beynəlxalq tədqiqatçılar qrupu tərəfindən "Transiting Exoplanet Survey Satellite" (TESS) kosmik teleskopunun məlumatları əsasında aparılıb. Planetlər TOI-5916 b və TOI-6158 b adlandırılıb. Onlar qırmızı cırtdan ulduzların orbitində fırlanırlar. Sıxlıqları Saturna bənzəyir, ölçüləri isə Yupiterlə müqayisə oluna bilər. Hər iki planet kosmik miqyasda nisbətən yaxın məsafədə - Yerdən müvafiq olaraq 592 və 639 işıq ili uzaqlıqda yerləşir.**

# Gündə bir qaşıq bundan yemək lazımdır



**Sağlam həyatın sirri bəzən elə öz mətbəximizdə gizlənir. Mütəxəssislər bildirirlər ki, gündəlik yeməklərdə istifadə etdiyimiz bəzi ədviyyatlar təkcə dad qatmaqla kifayətlənmir, həm də orqanizmi müxtəlif xəstəliklərdən qoruyur. Onlardan biri də darçındır.**

Mütəxəssislərin sözlərinə görə, darçının gündə cəmi bir qaşığı orqanizm üçün saysız faydalar gətirə bilər - qan şəkərini tənzimləyir, ürək-damar sağlamlığını qoruyur və bədəni gəncləşdirir. Britaniyalı həkim Əmir Xan sağlam qidalanma barədə paylaşımında darçının xüsusilə faydalı olduğunu qeyd edib. Onun sözlərinə görə, darçının fərqli qoxusu və dadı tərkibindəki "cinnamaldehid" adlı maddədən gəlir. Bu birləşmə darçına həm xoş dad verir, həm də onun müalicəvi təsirinə cavabdehdir.

Dr. Xan əlavə edib ki, darçın antioksidantlarla zəngindir. Bu maddələr bədəni DNT-yə zərər verə bilən sərbəst radikallardan qoruyur və hüceyrələrin yenilənməsini sürətləndirir.

**Darçının əsas faydaları:**

Qan şəkərini tənzimləyir və insulinin təsirini artırır.

İltihab əleyhinə xüsusiyyətlərə malikdir.

Xolesterin və trigliserid səviyyəsini azaldaraq ürək xəstəlikləri riskini azaldır.

Həzm sistemini gücləndirir, immuniteti möhkəmləndirir.

Tədqiqatlar göstərir ki, darçını müntəzəm, lakin ölçülü şəkildə qəbul etmək sağlamlıq üçün olduqca faydalıdır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.